## PREZİDENT İLHAM ƏLİYEV ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı qəbul edib. AZƏRTAC xəbər verir ki, Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya, ilk növbədə, dövlətimizin başçısına ötən il prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb. O, eyni zamanda, Ümumdünya Gömrük Təşkilatının baş katibi vəzifəsinə seçkilərdə...



Bax səh. 3

## 2018-Cİ İL AZƏRBAYCAN ÜÇÜN UĞURLU OLUB, ÖLKƏMİZ HƏRTƏRƏFLİ VƏ DİNAMİK İNKİŞAF EDİB

Yeni ilin əvvəlində, adətən, keçilmiş yola nəzər salınır, ötən ilin nəticələri saf-çürük edilir, qarşıya yeni hədəflər qoyulur. Bəs artıq tarixə çevrilən 2018-ci ildə müstəqil Azərbaycan, xalqımız hansı uğurlara imza atıb? Sualı, əlbəttə ki, ötən il qlobal miqyasda cərəyan edən proseslər fonunda cavablandırmaq lazım gəlir. Təəssüf doğuran haldır ki, 2018-ci ildə də dünyada bir sıra kataklizmlər yaşandı, ayrı-ayrı ölkələrin...



Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 15 yanvar 2019-cu il, çərşənbə axşamı / № 008 (5383). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev: İnsan sağlamlığı bizim üçün ən başlıca məsələlərdən biridir



*Prezident İlham Əliyev Qaradağ rayonunun Qobustan qəsəbəsində yeni inşa olunan xəstəxananın açılışında iştirak edib*



## Prezidentin iş günü

Prezident İlham Əliyev "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında Fərman imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb.

### Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı fevralın 20-də keçiriləcək

Fevralın 20-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçiriləcək. Bu barədə AZƏRTAC-a energetika nazirinin müşaviri - mətbuat katibi Zəminə Əliyeva...



Bax səh. 4

### "Ağ şəhər" Rəsm Qalereyasında gənc rəssam Fidan Əliyevanın "Həyat şəfqəti" adlı fərdi sərgisi açılıb

Yanvarın 14-də Bakının yeni cəlbedici məkanlarından olan "Ağ şəhər" Rəsm Qalereyasında gənc rəssam Fidan Əliyevanın rəngkarlıq əsərlərindən ibarət "Həyat şəfqəti" adlı fərdi sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, sərginin açılış mərasimində çıxış edən Mədəniyyət Nazirliyinin sektor müdiri Qalib Qasımov rəssamın yaradıcılıq axtarışlarından söhbət açıb. Bildirib ki, gənc olmasına baxmayaraq, məzmunlu rəsm əsərləri ilə diqqət çəkən Fidan Əliyevanın bu fərdi sərgisi həm də onun sənətsevərlərə növbəti yaradıcılıq hesabatıdır. "Bu gün Fidan Əliyevanın fərdi sərgisinin açılışına toplaşmışıq. Rəssam Azərbaycanın mədəni mühitində yaxşı tanınır. Bu sərgini yeni yaradıcılıq hesabatı da adlandırmaq olar. Sərgidə nümayiş olunan əsərlər rəssamın özünəməxsus yanaşma tərzini göstərir. Fidan xanım ətrafda gördüyü...

Bax səh. 6



## AZƏRBAYCAN İLƏ ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI ARASINDA ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNUB

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov yanvarın 14-də Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya ilə görüşüb. AZƏRTAC xəbər verir ki...

Bax səh. 4

## AZƏRBAYCANIN REGİONLARINDA MEYVƏÇİLİYİN İNKİŞAFINA XÜSUSİ DİQQƏT YETİRİLİR

*Bunun nəticəsidir ki, yerli fermerlər meyvə bağlarından bol məhsul toplayırlar*

Bu gün öz inkişafına görə regionun lider dövləti olan Azərbaycanda həyata keçirilən siyasət istər regional layihələrin, istərsə də müvafiq Dövlət proqramlarının uğurla icrasına imkan yaradır. Bu isə spesifik milli inkişaf modelinə malik olan ölkəmizin tərəqqisinin konseptual əsaslara söykəndiyini bir daha təsdiqləyir. Ümumiyyətlə, son 15 ildə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində bölgələrdə böyük layihələr reallaşdırılıb. Regionların sosial-iqtisadi inkişafından söz açarkən, onu da qeyd etmək yerinə düşər ki, bu prosesdə dövlətlə yanaşı, özəl sektor da yaxından iştirak edir. Bu baxımdan, ötən müddət ərzində ölkəmizdə sahibkarlara göstərilən dövlət dəstəyi, öz növbəsində, regionların inkişafında da mühüm rol oynayıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən...

Bax səh. 8



## PREZİDENT İLHAM ƏLİYEVİN İNKİŞAF VƏ QURUCULUQ SİYASƏTİ ÖLKƏMİZƏ BUNDAN SONRA DA BÖYÜK NAİLİYYƏTLƏR QAZANDIRACAQ

...Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan 2018-ci ildə iqtisadi, siyasi, mədəni...

Bax səh. 5

### *Hikmət Hacıyev:* Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu xarici siyasətimiz 2019-cu ildə də davam etdiriləcək

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dövlətimizin başçısı İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin...



Bax səh. 4

### *Məlahət İbrahimqızı:* Qazanılan nailiyyətlər 2019-cu ildə ölkəmizin daha böyük uğurlar əldə etməsi üçün ciddi baza yaradır

"Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına...



Bax səh. 5

### *Gövhər Baxşəliyeva:* 2019-cu ilin "Nəsimi ili" elan edilməsi nəsimişünaslığın inkişafına böyük təkan verəcək

Prezident İlham Əliyev tərəfindən 2019-cu ili ölkədə "Nəsimi ili" elan etməsi çox əlamətdar və təqdirəlayiq hadisədir...



Bax səh. 6

### Beynəlxalq olimpiadalara hazırlıq məkanına mediatur keçirilib

Yanvarın 12-də Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyindəki beynəlxalq olimpiadalara hazırlıq mərkəzinə mediatur keçirilib. AZƏRTAC xəbər verir ki...



Bax səh. 6

### 20 Yanvar faciəsi tariximizin şərəf və qəhrəmanlıq salnaməsidir

Vətənpərvərliyin ən ali məqamı - şəhidlikdir. Bu ucalığa yüksələnlərin ömür yolu şərəfli və örnək sayılır. Müxtəlif məqamlarda bizi düşündürən, narahat edən, ağladan, sevindirən...



Bax səh. 7

# Prezident İlham Əliyev: İnsan sağlamlığı bizim üçün ən başlıca məsələlərdən biridir

*Prezident İlham Əliyev Qaradağ rayonunun Qobustan qəsəbəsində yeni inşa olunan xəstəxananın açılışında iştirak edib*

Yanvarın 14-də Bakının Qaradağ rayonunun Qobustan qəsəbəsində Səhiyyə Nazirliyinin yeni inşa olunan 17 saylı birləşmiş şəhər xəstəxanasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov və 17 saylı birləşmiş şəhər xəstəxanasının baş həkimi, Əməkdar həkim Elmira Rəfailova görülən işlər barədə məlumat veriblər. Bildirilib ki, 60 çarpayılıq dördmərtəbəli birləşmiş şəhər xəstəxanasının ərazisində təcili yardım stansiyası və digər binalar inşa olunub, zəruri infrastruktur yaradılıb. Xəstəxananın yerləşdiyi ərazinin ümumi sahəsi 1,4 hektardır, tibb ocağının binasının ümumi sahəsi isə 8 min kvadratmetrə yaxındır.









Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsib.

Qeyd edilib ki, Qobustanda xəstəxana 1955-ci ildən fəaliyyətə başlayıb. Xəstəxana binalarının yararsız vəziyyətdə olması nəzərə alınaraq Prezident İlham Əliyevin 2011-ci il 6 aprel tarixli Sərəncamı ilə Qobustan qəsəbəsindəki 17 nömrəli birləşmiş şəhər xəstəxanasının yenidən qurulması üçün maliyyə vəsaiti ayrılıb. Aparılan inşaat işləri zamanı köhnə xəstəxananın yerləşdiyi binalar tam sökülüb və onların yerində müasir standartlara cavab verən yeni xəstəxana binası inşa edilib.

Xəstəxana binasında ümumi qəbul, funksional diaqnostika, pediatriya, mama-ginekologiya, travmatologiya, cərrahiyyə və doğum şöbələri, rentgen, terapevt, EKQ, otorinolarinqoloq, oftalmoloq, stomatoloq kabinetləri, əczaxana yaradılıb. Tibb müəssisəsində, eyni zamanda, ümumi terapiya, reanimasiya şöbələri, böyüklər və uşaqlar üçün palatalar, laboratoriyalar var. Xəstəxananın hemodializ və fizioterapiya şöbələrində müasir avadanlıq quraşdırılıb, bütün şöbələr və bölmələr arasında birbaşa əlaqələr mövcuddur. Bu isə həm həkimlərin, həm də xəstələrin rahatlığını təmin etmək baxımından böyük rol oynayır. Xəstəxana binasında istirahət və gözləmə guşələri də yaradılıb. Tibb müəssisəsinin müşavirə zalı və yeməkxanası da var. Xəstəxana binası yüksək zövq və keyfiyyətlə inşa olunub. Tibbi heyət köhnə xəstəxana binasında gün ərzində 80-90 xəstəyə xidmət göstərə bilirdisə, yeni binada gün ərzində 200-300 xəstəyə tibbi xidmət göstərmək mümkündür. Yeni xəstəxana binasının istifadəyə verilməsindən sonra burada 200-250 həkim, orta və kiçik tibb heyəti və yardımçı işçilərin işlə təmin olunması nəzərdə tutulur.

Səhiyyə sisteminin təkmilləşdirilməsi, bu sahənin müasirləşdirilməsi və inkişafı son illərdə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində mühüm yerlərdən birini tutur.

Heydər Əliyev Fondu səhiyyə sahəsində həyata keçirilən dövlət siyasətinə dəyərli töhfələr verir. Fəaliyyəti dövründə Fondun təşəbbüsü ilə müxtəlif səhiyyə müəssisələrinin, o cümlədən xəstəxanaların, Müalicə-Diaqnostika, Reabilitasiya mərkəzlərinin, poliklinikaların inşası həyata keçirilib, səhiyyə ocaqları əsaslı təmir olunub və lazımi avadanlıqla təmin edilib. Fondun gələcəyimiz olan uşaqların sağlamlığı üçün atdığı addımlar görülən işlərin tərkib hissəsidir. Diabetli uşaqlara ən yüksək qayğı, talassemiyasız həyat naminə layihələr və Fond tərəfindən həyata keçirilən digər tədbirlər, ilk növbədə, vətəndaşlarımızın sağlamlığının qorunması, uşaqların sağlam böyüməsi kimi mühüm və nəcib məqsədə xidmət edir. Bu gün Azərbaycanda səhiyyənin inkişafı bir çox sahədə özünü aydın büruzə verir. Bu, istər yeni tibb ocaqlarının inşası, istər mövcud xəstəxana və tibb mərkəzlərinin bərpası, istərsə də tibb müəssisələrinin ən müasir avadanlıqla təchiz edilməsində özünü daha qabarıq göstərir. Bütün bunlar sübut edir ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi istiqamətində icra olunan layihələri dövlətimizin başçısı daim nəzarətdə saxlayır. Bu layihələr, eyni zamanda, vətəndaşlarımızın məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanması ilə bağlı görülən mühüm işlərin davamlı olduğunu göstərir.





Sonra dövlətimizin başçısı tibb müəssisəsinin kollektivi ilə görüşüb.

Prezident İlham Əliyev deyib: **"Bu gün Qaradağ rayonunun Qobustan qəsəbəsində çox gözəl hadisə baş verir, çox əlamətdar bir gündür. Biz yeni tikilmiş gözəl xəstəxananın açılışını birlikdə qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.**

**Çox gözəl binadır, çox gözəl şərait yaradılıb, ən müasir avadanlıq quraşdırılıb. Binanın sahəsi də çox böyükdür və əminəm ki, burada xəstələrə ən yüksək tibbi xidmət göstəriləcəkdir. Mən buraya gələrkən girişdə mənə xəstəxananın əvvəlki şəkilləri, görüntüləri göstərildi. Siz, burada işləyən həkimlər, tibb işçiləri yaxşı bilirsiniz ki, əvvəlki xəstəxananın vəziyyəti çox ağır, bərbad idi. Bu, təbiidir, çünki xəstəxana 50-ci illərin əvvəllərində fəaliyyətə başlamışdı və uzun müddət təmirsiz qalmışdı. Mən xatırlayıram, bir neçə il bundan əvvəl Qobustan qəsəbəsində olarkən mənə xəstəxananın baş həkimi müraciət etmişdi ki, yeni xəstəxana tikilsə, yaxşı olar. Mən də dərhal göstəriş verdim, vəsait ayırdıq və bu gün bu gözəl xəstəxananın açılışında biz birlikdə iştirak edirik. Onu da xatırlayıram ki, o səfərdə bir neçə xahiş irəli sürülmüşdü. Onların arasında Mədəniyyət evinin, məktəbin, poliklinikanın və xəstəxananın tikilməsi təklifləri var idi və hər biri icra edildi. Yəni, qəsəbənin və rayonun sakinlərinin xahişləri ən yüksək səviyyədə yerinə yetirildi. Bu gün bu gözəl xəstəxana, ilk növbədə, bizim siyasətimizi əks etdirir. Onu göstərir ki, insan sağlamlığı bizim üçün ən başlıca məsələlərdən biridir, digər tərəfdən onu göstərir ki, yerlərdən, vətəndaşlardan gələn hər bir təklifə baxılır və imkan daxilində bu təkliflər təmin edilir, onlar yerinə yetirilir. Bu canlı təmas hesab edirəm ki, bizim uğurlarımızın təməlində dayanan ən vacib amillərdən biridir və mənim vətəndaşlarla müntəzəm görüşlərim, rayonlara səfərlərim, - təkcə keçən il 24 rayona səfər etmişəm, - Bakı qəsəbələrinin problemlərinin həlli ilə bağlı atılan addımlar və yerlərdən gələn təkliflərə müsbət yanaşılması bizim uğurlu inkişafımızı təmin edir. Əgər o vaxt mənim qarşımda bu məsələ qaldırılmasaydı, bəlkə də indi bu xəstəxana da tikilməyəcəkdi. Ona görə, mən həmişə deyirəm ki, insanları narahat edən, həlli vacib olan məsələlər daim məruzə edilsin, məlumat verilsin ki, biz bu məsələləri həll edək.**




**Qobustan xəstəxanasının timsalında biz inkişafda olan ölkəmizin dinamik addımlarını görürük. Bu gün Azərbaycan dünya miqyasında seçilən ölkələrdəndir ki, burada həm iqtisadi, həm sosial və bütün başqa məsələlər uğurla öz həllini tapır. Sosial məsələlərin arasında, əlbəttə ki, səhiyyə sisteminin inkişafı xüsusi yer tutur. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır və hər bir insan üçün onun sağlamlığı, onun yaxınlarının sağlamlığı xüsusi əhəmiyyət daşıyır. Biz çalışırıq və çalışacağıq ki, bu sahədə bütün lazımi tədbirləri görək. Onu da bildirməliyəm ki, təkcə son 15 il ərzində ölkəmizdə 600-dən çox xəstəxana, tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı şəkildə təmir edilib. Ölkəmizin hər bir şəhərində və ya onların mütləq əksəriyyətində müasir xəstəxanalar artıq tikilib və bir neçə şəhərdə tikinti işləri davam edir. Yaxın gələcəkdə Azərbaycanda elə bir şəhər olmayacaq ki, orada ən müasir tibbi mərkəz olmasın.**

**Siz yaxşı bilirsiniz ki, 5 milyondan çox insan hər il dövlət xətti ilə tibbi müayinədən keçir. Bu, bizim təşəbbüsümüzdür və dünyanın nadir ölkələrində belə təşəbbüs həyata keçirilir. Bunun da bir məqsədi var ki, vətəndaşlar, əgər onların sağlamlığında hər hansı bir problem varsa, onu vaxtında aşkar etsinlər və yüksək səviyyəli müalicə alsınlar. Bu proqram nəticəsində minlərlə insan artıq lazımi səviyyədə müalicə alır.**

**Diaqnostika və müalicə bir-biri ilə vəhdət təşkil edir. Bu xəstəxanada həm diaqnostika, həm də poliklinika şöbəsi, təcili yardım stansiyası və əməliyyat aparmaq üçün imkanlar, doğum şöbəsi var. Mənə məlumat verildi ki, bu məsələ ilə bağlı ciddi problemlər var idi və bu bölgədə doğum şöbəsi yox idi. Siz onu da yaxşı bilirsiniz ki, bu xəstəxana ətraf qəsəbələrə də xidmət göstərəcək, on minlərlə insan bu imkanlardan istifadə edəcək. Əlbəttə ki, bu xəstəxanada dializ şöbəsinin yaradılması xüsusi məna daşıyır. Çünki mənə verilən məlumata görə, burada böyrək xəstələri var ki, onlar da müntəzəm olaraq Bakıya dializ almaq üçün getməli olurdular. Bu da həm məsrəfdir, həm də narahatlıqdır, əziyyətdir. Ona görə, burada indi dializ şöbəsinin yaradılması bu insanlara da böyük dəstək olacaq, onlar öz sağlamlığını burada bərpa edəcəklər.**

**Biz bütün bunları, bütün bu işləri ona görə görürük ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar və onları narahat edən məsələlər öz həllini tapsın. Əlbəttə ki, buna nail olmaq üçün güclü iqtisadiyyat olmalıdır və biz bu iqtisadiyyatı qururuq. Keçən ilin nəticələri, - bir neçə gün bundan əvvəl bu barədə mən xalqa hesabat verdim, - çox müsbətdir. Bu, onu göstərir ki, biz düzgün yoldayıq, biz uğurla inkişaf edirik və ölkəmiz öz hesabına, öz daxili imkanları hesabına bütün lazım olan məsələləri həll edir, həm sosial, həm iqtisadi, infrastrukturla bağlı və digər məsələləri. Əminəm ki, gələcək illərdə, o cümlədən əlbəttə ki, 2019-cu ildə biz bu müsbət dinamikanı saxlayacağıq, ölkəmiz uğurla inkişaf edəcək və bütün məsələlər öz həllini tapacaq.**

**Mən sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm və həkimlərə uğurlar arzulayıram. Həkimlər üçün gözəl iş yeri yaradılıbdır ki, siz burada xəstələrə yaxşı xidmət göstərəsiniz. Sağ olun".**

* * *

Xəstəxananın baş həkimi, Əməkdar həkim Elmira Rəfailova yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirərək deyib: **"Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, biz sizi bir daha salamlayırıq, rayonumuza xoş gəlmisiniz. Bu gün Qobustan qəsəbəsi və bütün Qaradağ rayonu sevinc içərisindədir. Keçən əsrin 50-ci illərində tikilmiş 17 saylı birləşmiş şəhər xəstəxanası yararsız vəziyyətə düşdüyündən Siz dərhal Sərəncam verdiniz, xəstəxana söküldü və yerində yenisi tikildi. Bu müasir, gözəl tibbi cihazlarla təmin olunmuş xəstəxananı bu gün bizə hədiyyə edirsiniz. Bu hədiyyəyə görə Sizə böyük minnətdarlığımızı bildirmək istəyirik. Bu, şəxsən Sizin və Mehriban xanımın tibb sahəsinə olan qayğınızın nəticəsidir.**

**Dörd ildən artıqdır ki, Sizin Sərəncamınıza əsasən ildə bir dəfə əhalinin dispanserizasiyası keçirilir, bu aksiya xəstəliklərin aşkar edilməsinə və profilaktikasına böyük kömək edir. Belə bir növbəti dispanserizasiya bu gözəl binada daha səmərəli və keyfiyyətli keçəcək. Xüsusilə vurğulamaq istəyirəm ki, bizim xəstəxanada hemodializ və travmatologiya şöbələri Qaradağ rayonu tarixində ilk dəfə fəaliyyət göstərəcək. Nəinki bizim qəsəbəyə, ətrafdakı rayonlara, 50-60 min əhaliyə xidmət göstərmək imkanımız var. Bütün cihazlarımız, hər bir imkanımız var. Biz Sizə söz veririk ki, xalqımıza vicdanla, keyfiyyətlə xidmət edəcəyik.**

**Kollektivimiz adından və Qobustan qəsəbəsi sakinləri adından, bütün Qaradağ rayonu adından Sizə böyük minnətdarlıq edirik. Sizə və ailə üzvlərinizə cansağlığı, Azərbaycan naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirik. Allah Sizi və Sizin ailənizi qorusun. Çox sağ olun".**

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qobustan qəsəbəsi Ağsaqqallar Şurasının sədri Allahverdi Məmmədov deyib:** Cənab Prezident, Qobustana ikinci dəfədir gəlirsiniz. Sizin gəlişiniz bizim üçün bayramdır. Bu bayramı bizə nəsib etdiyinizə görə Sizə minnətdarıq.

Qobustan qəsəbəsinin əhalisi adından, ağsaqqallar, ziyalılar adından Sizə "Xoş gəlmisiniz!" deyirik, Sizə uğurlar, cansağlığı arzulayırıq. Allah Sizi bizə çox görməsin.

**Prezident İlham Əliyev:** Çox sağ olun, Qobustan qəsəbəsinin, bütün Qaradağ rayonunun sakinlərinə salamlarımı çatdırın. Bilirsiniz ki, məni Qaradağ rayonu ilə uzun tarix birləşdirir. Mən öz siyasi fəaliyyətimi buradan başlamışam.

**Allahverdi Məmmədov:** Mehriban xanım bizim Qobustan qoruğunu 2007-ci ildə UNESCO-ya daxil edib. Bizim bu Qobustanı dünyaya tanıtdırdığı üçün sevimli Mehriban xanıma minnətdarıq.

**Mehriban Əliyeva:** Çox sağ olun.

**Allahverdi Məmmədov:** Qəsəbəmizin sakinləri adından Sizə də minnətdarlığımızı bildiririk, cənab Prezident, çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirilib.

# Prezident İlham Əliyev Ümumdünya Gömrük Təşkilatının baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya, ilk növbədə, dövlətimizin başçısına ötən il prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb. O, eyni zamanda, Ümumdünya Gömrük Təşkilatının baş katibi vəzifəsinə seçkilərdə Azərbaycanın verdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Təbriklərə görə təşəkkür edən Prezident İlham Əliyev, öz növbəsində, Kunio Mikuriyanı Ümumdünya Gömrük Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik edib. Dövlətimizin başçısı bunu onun səmərəli fəaliyyətinə verilən qiymət kimi dəyərləndirərək ölkəmizin Kunio Mikuriyanın rəhbərliyi ilə Ümumdünya Gömrük Təşkilatında həyata keçirilən işləri yüksək qiymətləndirdiyini deyib. Prezident İlham Əliyev hazırda Azərbaycanda bütün istiqamətlərdə, o cümlədən gömrük sahəsində genişmiqyaslı islahatların həyata keçirildiyini və bunun artıq çox yaxşı nəticələr verdiyini vurğulayıb. Dövlətimizin başçısı qeyd edib ki, O, Azərbaycan gömrük sisteminin dünyanın ən şəffaf gömrük sistemlərindən biri olmasını istəyir və Ümumdünya Gömrük Təşkilatının bu məqsədə çatmaq işində bizə kömək göstərməyi davam etdirəcəyinə ümidvar olduğunu bildirib.

Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya Azərbaycan gömrük sisteminin nümunəvi bir qurum olduğunu və Ümumdünya Gömrük Təşkilatının standartlarına uyğun fəaliyyət göstərməsini yüksək qiymətləndirib. Kunio Mikuriya xüsusilə Azərbaycanın korrupsiya ilə mübarizənin, beynəlxalq standartlara cavab verən texnologiyaların tətbiqinin və əlverişli biznes mühitinin yaradılmasının gömrük orqanlarının şəffaf fəaliyyəti üçün mühüm əhəmiyyət daşıdığını deyib və görülən bütün bu işlərin onda böyük təəssürat doğurduğunu qeyd edib.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycanda korrupsiya ilə mübarizənin ən prioritet istiqamətlərdən biri olduğunu deyib. Prezident İlham Əliyev gömrük orqanlarında həyata keçirilən ardıcıl tədbirlər nəticəsində şəffaflığın əldə edildiyini və gömrükdən daxil olan rüsumların planlaşdırıldığından da artıq olduğunu bildirib. Azərbaycanda biznes fəaliyyəti üçün əlverişli mühitin daha da yaxşılaşdığını qeyd edən dövlətimizin başçısı Dünya Bankı tərəfindən Azərbaycanın 10 ən çox islahatçı ölkələr sırasına daxil edildiyini, Dünya Bankının "Doing Business" hesabatında 57-ci yerdən 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşmasını önəmli hadisə kimi dəyərləndirib. Prezident İlham Əliyev Azərbaycanda genişmiqyaslı islahatların qarşıdakı illərdə də davam etdiriləcəyini vurğulayaraq, ölkəmizin Ümumdünya Gömrük Təşkilatı ilə bundan sonra da səmərəli əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə edib.

# 2018-ci il Azərbaycan üçün uğurlu olub, ölkəmiz hərtərəfli və dinamik inkişaf edib

*Yeni ilin əvvəlində, adətən, keçilmiş yola nəzər salınır, ötən ilin nəticələri saf-çürük edilir, qarşıya yeni hədəflər qoyulur. Bəs artıq tarixə çevrilən 2018-ci ildə müstəqil Azərbaycan, xalqımız hansı uğurlara imza atıb? Sualı, əlbəttə ki, ötən il qlobal miqyasda cərəyan edən proseslər fonunda cavablandırmaq lazım gəlir. Təəssüf doğuran haldır ki, 2018-ci ildə də dünyada bir sıra kataklizmlər yaşandı, ayrı-ayrı ölkələrin timsalında biz sabitliklə, təhlükəsizliklə, sosial-iqtisadi inkişafla bağlı ciddi problemlərin yaşandığını və bundan insanların, ələlxüsus da uşaqların, qadınların, yaşlıların ciddi əziyyət çəkdiklərinin şahidi olduq.*

## *Prezident İlham Əliyev: Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir*



Deyilənlər fonunda müstəqil Azərbaycanın mənzərəsi isə tamam fərqli rakursdan diqqəti cəlb edir. Respublikamız inamlı inkişafını 2018-ci ildə də davam etdirib. Prezident İlham Əliyevin Sədrliyi ilə yanvarın 11-də keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində dövlətimizin başçısı bildirib ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olunmuşdur, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin edilmişdir. Qlobal miqyasdakı mənfi mənzərə fonunda ölkəmizin uğurlarının daha qabarıq şəkildə nəzərə çarpdığını bildirən dövlət başçısı vurğulayıb: **"Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək".**

### ÖTƏN İL ÖLKƏMİZ İQTİSADİ GÜCÜNÜ DAHA DA ARTIRIB

Dünya üçün çətin keçən illərdə də müstəqil Azərbaycanın hərtərəfli inkişafını şərtləndirən bir sıra mühüm amilləri sadalamaq mümkündür ki, burada iqtisadi güc amilinin önəmini xüsusi vurğulamaq lazımdır. Respublikamızda davamlı olaraq qarşıya yeni inkişaf hədəfləri qoyulurkən ilk növbədə ölkənin iqtisadi potensialı əsas götürülür. Xarici mənfi təsirlərə müqavimət gücünə malik iqtisadiyyat qurulması müstəqil Azərbaycanın milli gücünü artıran fundamental amil rolunda çıxış edir. Son 15 ildə respublikamızda milli inkişafın real əsaslarının yaradılması - güclü iqtisadiyyat qurulması üçün bütün şərtlər təmin edilib. Belə ki, qlobal miqyasda meydana çıxan çağırışlara və ölkənin reallıqlarına uyğun şəkildə genişmiqyaslı islahatlar aparılıb, iqtisadiyyatın ayrı-ayrı sektorlarının maliyyə təminatı möhkəmləndirilib. Hazırda respublikamızda dövlət başçısının imzaladığı müvafiq Fərmanla təsdiqlənən milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin uğurla icra edilməsi ölkədə reallaşdırılan islahatların səmərəliliyini daha da artırır.

Son 15 ilin göstəriciləri ölkəmizin Prezident İlham Əliyev tərəfindən innovativ əsaslı güclü iqtisadiyyat quruculuğu ilə bağlı qarşıya qoyulan strateji hədəfə doğru inamla irəlilədiyini bir daha təsdiqləyir. 2004-cü ildən bəri bütün dünya üzrə ÜDM istehsalının artımında ən yaxşı göstəricilərdən biri, 3 dəfədən çox olmaqla, məhz Azərbaycanda qeydə alınıb. Qürurverici haldır ki, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlib.

Respublikamızda iqtisadi inkişafın yeni paradiqmaları sırasında qeyri-neft sektoru üzrə müasir sənaye quruculuğu siyasəti mühüm yer tutur. Ölkəmizdə müasir texnologiyaların tətbiqinə əsaslanan elm tutumlu qeyri-neft sənayesinin geniş inkişaf perspektivləri var. 2014-cü ilin dekabrında təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, hazırda paytaxt Bakıda və regionlarda yeni sənaye müəssisələri yaradılır, paralel şəkildə Pirallahıda, Sumqayıtda, Mingəçevirdə sənaye parkları formalaşdırılır.

> *"Keçən il iqtisadi inkişaf baxımından uğurlu il olmuşdur. Deyə bilərəm ki, keçən il dərin iqtisadi islahatlar ili olmuşdur və bu islahatların nəticələrini indi hər kəs görür. Büdcəmizə daxilolmalar böyük dərəcədə artıb"*

Azərbaycanın iqtisadi potensialının davamlı olaraq artmasında qeyri-neft sektorunun mühüm bir qolu kimi aqrar sektorun rolunu xüsusi qeyd etmək lazımdır. Son illərdə ölkə miqyasında böyük potensiala malik aqrar sektor yeni yanaşmalar əsasında inkişaf etdirilir, burada əmək tutumu böyük, gəlir imkanları geniş olan bitkilərin becərilməsi diqqət mərkəzində saxlanılır.

Bütövlükdə, respublikamızda Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət sayəsində milli iqtisadiyyatımızın müstəqilliyini təmin etmək mümkün olub. Bu gün Azərbaycan iqtisadiyyatı özü özünü təmin edən, heç bir kənar mənbədən asılı olmayan iqtisadiyyatdır. Təsadüfi deyil ki, Azərbaycan öz siyasətində, bir qayda olaraq, milli maraqları əsas tutur, heç bir xarici gücün diktəsini qəbul etmir. Prezident İlham Əliyev bu kimi məqamlara diqqət çəkərək **"Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik bizə imkan verir ki, müstəqil siyasət aparaq, Azərbaycan xalqının maraqlarını müdafiə edək",** - deyə bildirib.

Artıq tarixə dönən 2018-ci il də Azərbaycan üçün iqtisadi inkişaf baxımından uğurlu il olub. Respublikamız ötən ili bütün istiqamətlər üzrə müsbət göstəricilərlə başa vurub. Belə ki, 2018-ci ildə ölkəmizdə ümumi daxili məhsul istehsalında 1,4 faiz artıma nail olunub ki, bu da dünyadakı mənzərə fonunda kifayət qədər yaxşı göstəricidir. Bundan daha yaxşı artım göstəricisi isə 1,8 faiz olmaqla qeyri-neft sektorunda qeydə alınıb. O cümlədən il ərzində respublikamızda sənaye istehsalı 1,5 faiz artıb. Qeyri-neft sektorunda sənaye istehsalı isə 9,1 faiz artıb ki, bu da ölkədə aparılan uğurlu sənayeləşmə siyasətinin bəhrəsidir. Eyni zamanda, ötən il qeyri-neft iqtisadiyyatının mühüm bir qolu olan aqrar sektorda 4,6 faiz artım baş verib. Azərbaycanın yüksək sərmaye cəlbediciliyi 2018-ci ildə də qorunub saxlanılıb. İl ərzində ölkəmizə müxtəlif mənbələrdən 17,2 milyard manat məbləğində sərmayələr yönəldilməsi bunu bir daha təsdiqləyir. Əlamətdar hal ondan ibarətdir ki, bu sərmayələrin 11 milyard manatdan çoxu ölkəmizin qeyri-neft iqtisadiyyatına yönəldilib.

Ötən il ölkədə iqtisadi artım fonunda makroiqtisadi sabitlik də təmin edilib. Hazırda respublikamızda cəmi 2,3 faiz həddində inflyasiya müşahidə edilir, bunun müqabilində əhalinin gəlirləri isə ötən il 9,2 faiz artıb. Rəqəmlərdən də göründüyü kimi, ölkəmizdə əhalinin gəlirləri inflyasiyanı əhəmiyyətli dərəcədə üstələyir. Bütövlükdə 2018-ci ilin iqtisadi inkişaf göstəricilərini yüksək qiymətləndirən Prezident İlham Əliyev vurğulayıb: **"Keçən il iqtisadi inkişaf baxımından uğurlu il olmuşdur. Deyə bilərəm ki, keçən il dərin iqtisadi islahatlar ili olmuşdur və bu islahatların nəticələrini indi hər kəs görür. Büdcəmizə daxilolmalar böyük dərəcədə artıb".**

### AZƏRBAYCAN ÖZÜNÜN DƏRİNMƏZMUNLU SOSİAL SİYASƏTİNƏ 2018-Cİ İLDƏ DƏ SADİQ QALIB

Azərbaycan sosial dövlətdir. Ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının maraqları dayanır. Dövlət başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq ölkənin iqtisadi-maliyyə imkanları artdıqca insanların rifah halının yaxşılaşdırılmasına yönələn tədbirlərin miqyası da genişlənir. Ölkədə ədalətli resurs bölgüsü aparılır, ehtiyacı olan bütün vətəndaşlar dövlət qayğısı ilə əhatə olunurlar. Qeyd etmək yerinə düşər ki, Minilliyin İnkişaf Məqsədlərinə qoşulan respublikamızda işsizlik və yoxsulluq qısa müddətdə 5 faizədək aşağı salınıb.

> *"Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir. İl ərzində biz 32 pillə irəliyə getmişik. Hesab edirəm ki, bu, rekord göstəricidir. Biznesi aparmaq üçün yaradılan şəraitə görə dünya miqyasında 25-ci yerdə olmaq böyük nailiyyətdir"*

Respublikamız özünün dərinməzmunlu sosial siyasətinə 2018-ci ildə də sadiq qalıb. Nazirlər Kabinetinin bəhs olunan iclasında maliyyə naziri Samir Şərifov məlumat verərək bildirib ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına uyğun olaraq ötən ilin mart ayından əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ölkədə sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin orta hesabla 10 faiz artırılması təmin olunub, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqları da 10 faiz artırılıb. Bu tədbirlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsində əlavə olaraq 446,0 milyon manat təminat yaradılıb.

Eyni zamanda, respublikamızda əhaliyə göstərilən sosial xidmətlərin səmərəliliyinin artırılması və onlara əlçatanlığın təmin olunması üçün islahat xarakterli tədbirlər həyata keçirilir. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə sosial xidmətlərin vahid platforma və "bir pəncərə"dən, şəffaf və vətəndaş məmnunluğu şəraitində göstərilməsi məqsədilə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və "DOST" mərkəzlərinin yaradılmasına başlanıb. Dövlət başçısının 2018-ci il 9 avqust və 10 dekabr tarixli fərmanlarına əsasən "DOST" layihəsinin hüquqi və institusional işləri artıq başa çatıb. "DOST" mərkəzlərində birbaşa, telefon və internetlə, səyyar və tam avtomatlaşdırılmış qaydada 124 xidmət göstəriləcəkdir. Tezliklə Yasamal rayonunda ilk "DOST" mərkəzinin açılması, cari ildə Bakıda daha 3 mərkəzin yaradılması nəzərdə tutulur. Eyni zamanda, elektron xidmətlərin genişləndirilməsi məqsədilə Prezident İlham Əliyevin tapşırıqlarının və 2018-ci il 5 sentyabr tarixli Fərmanının icrası olaraq "e-sosial" internet portalı, "Məşğulluq" sistemi və 18 alt sistemdən ibarət Mərkəzləşdirilmiş İnformasiya Sistemi yaradılıb. "E-sosial" portalı ölkəmizdə ilk dəfə olaraq sosial reyestri formalaşdırıb, vətəndaşlara əmək müqavilələri, məşğulluq, pensiya kapitalı, mənzil və avtomobil növbəsi, əlillik, reabilitasiya və digər məlumatlara birbaşa çıxış imkanı yaradıb, şəffaflığı və ictimai açıqlığı təmin edib.

> *"Müharibədən əziyyət çəkən soydaşlarımızın problemləri də keçən il uğurla həll olunub. Bu məsələ ilə bağlı çox ciddi addımlar atılıb. Keçən il 5800-dən çox köçkün ailəsinə yeni evlər, mənzillər verilibdir. Bu, son illər ərzində rekord göstəricidir. Bununla bərabər, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil verilib"*

Sosialyönlü siyasətin digər vacib istiqamətləri kimi qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması üçün 2018-ci ilin icmal və dövlət büdcələrindən üst-üstə 436,0 milyon manat, sosial mənzillərin tikintisi və güzəştli ipoteka proqramının davamı üçün müvafiq olaraq 100,0 və 50,0 milyon manat vəsait ayrılıb. Eyni zamanda, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri 626 mənzillə təmin edilib, ordumuzda uzun müddət qüsursuz xidmət etmiş hərbi qulluqçuların mülkiyyətinə ötən il 394 mənzil verilərək, ümumilikdə hərbi qulluqçulara verilmiş mənzillərin sayı 1284-ə çatdırılıb. Prezident İlham Əliyev bildirib ki, müvafiq kateqoriyadan olan insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər cari ildə də davam etdiriləcək: **"Müharibədən əziyyət çəkən soydaşlarımızın problemləri də keçən il uğurla həll olunub. Bu məsələ ilə bağlı çox ciddi addımlar atılıb. Keçən il 5800-dən çox köçkün ailəsinə yeni evlər, mənzillər verilibdir. Bu, son illər ərzində rekord göstəricidir. Bununla bərabər, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil verilib. Bu il daha da çox mənzil veriləcək, o cümlədən məcburi köçkünlər üçün yeni şəhərciklər tikiləcək. Yəni, bu məsələ daim diqqət mərkəzindədir. Biz hələ də ağır vəziyyətdə yaşayan köçkünlərin problemlərinin həlli üçün bu il də böyük vəsait nəzərdə tutmuşuq. Biz bu məsələləri həll edəcəyik".**

### RESPUBLİKAMIZIN QAZANDIĞI UĞURLAR BEYNƏLXALQ SƏVİYYƏDƏ YÜKSƏK QİYMƏTLƏNDİRİLİR

Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində qazandığı uğurlar beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. Bunu beynəlxalq reytinq agentliklərinin hesabatlarından da görmək mümkündür. Məlumdur ki, nüfuzlu Davos İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan mövqeyini daha iki pillə yaxşılaşdıraraq 35-ci yerdə qərarlaşıb və MDB məkanında liderlik mövqeyini yenə də qoruyub saxlayıb. Eyni zamanda, respublikamız yenə Davos Forumunun dəyərləndirməsinə görə, inkişaf etməkdə olan ölkələr sırasında inklüziv inkişaf indeksi üzrə üçüncü yeri tutur ki, bu da böyük uğurdur. Rusiyanın Milli Araşdırma Universitetinin Sosial Siyasət Tədqiqatları İnstitutunun, eləcə də "Standard & Poor's" və "Fitch Ratings" reytinq agentliklərinin 2018-ci ildə yayılan hesabatlarında da ölkəmizin sosial-iqtisadi inkişafı ilə bağlı dəyərləndirmələr kifayət qədər müsbətdir. Respublikamızın müsbət reallıqlarının təsdiqi baxımından Dünya Bankının 2018-ci ilin sonlarında təqdim olunan "Doing Business 2019" hesabatı da istisna deyildir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar "Doing Business 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına imkan verib. Azərbaycanın dövlət başçısı Dünya Bankının bəhs olunan hesabatında respublikamızın 32 pillə irəliləməsini yüksək dəyərləndirərək deyib: **"Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir. İl ərzində biz 32 pillə irəliyə getmişik. Hesab edirəm ki, bu, rekord göstəricidir. Biznesi aparmaq üçün yaradılan şəraitə görə dünya miqyasında 25-ci yerdə olmaq böyük nailiyyətdir".**

Dünya Bankının yaydığı "Doing Business 2019" hesabatında Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Hesabata əsasən, respublikamız dünyanın bir çox ölkələrini geridə qoymaqla MDB məkanında lider mövqeyə yüksəlib.

Ekspertlər Dünya Bankının yaydığı yeni hesabatda Azərbaycanın yüksək qiymətə layiq görülməsinin və ayrı-ayrı indikatorlar üzrə mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdırmasının ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsi olduğunu bildirirlər. Vurğulamaq yerinə düşər ki, "Doing Business" hesabatı dünyada qəbul edilən obyektiv meyarlar əsas götürülməklə hazırlanır. Hesabat xarici investorlar tərəfindən biznes mühitinə dair etibarlı mənbə kimi istinad edilən əsas reytinq göstəricisi olmaqla yanaşı, digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda ("Qlobal Rəqabətlilik Hesabatı", "Qlobal İnnovasiyalar İndeksi", "İqtisadi Azadlıq İndeksi", "Qlobal İmkanlar İndeksi" və s.) da baza rolunu oynayır.

**Mübariz ABDULLAYEV**

# Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlıq məsələləri müzakirə olunub



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov yanvarın 14-də Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Kunio Mikuriyanı Ümumdünya Gömrük Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik edən Baş nazir Azərbaycan ilə təşkilat arasında uzunmüddətli uğurlu əməkdaşlığın olduğunu vurğulayıb. Bildirib ki, gənc ölkə olmasına baxmayaraq, Azərbaycan Ümumdünya Gömrük Təşkilatına uğurla inteqrasiya edib. Bu məsələdə Kunio Mikuriyanın xüsusi rolunu qeyd edən Novruz Məmmədov onun ölkəmizə səfərinin əlaqələrin daha da genişləndirilməsi baxımından önəmli olacağına əminliyini bildirib.

Kunio Mikuriya da öz növbəsində, Novruz Məmmədovu Azərbaycanın Baş naziri təyin olunması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Ümumdünya Gömrük Təşkilatının Azərbaycanda dörd regional mərkəzinin fəaliyyət göstərdiyini qeyd edən baş katib deyib ki, ölkəmiz təşkilatın ən fəal üzvlərindən biridir və qurumun işinə mühüm töhfə verir.

Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının standartlarını uğurla tətbiq etdiyini söyləyən Kunio Mikuriya ölkəmizlə səmərəli əməkdaşlığın daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini deyib.

Söhbət zamanı Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasındakı əməkdaşlığın gələcək inkişafına və qarşılıqlı maraq doğuran digər məsələlərə dair müzakirələr aparılıb.

# Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı fevralın 20-də keçiriləcək



Fevralın 20-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçiriləcək.

Bu barədə AZƏRTAC-a energetika nazirinin müşaviri - mətbuat katibi Zəminə Əliyeva məlumat verib.

Qeyd edək ki, toplantıda "Cənub Qaz Dəhlizi" layihəsinə cəlb edilmiş dövlətlərin, eləcə də digər ölkələrin nümayəndələri, layihənin səhmdarlarının və beynəlxalq maliyyə qurumlarının təmsilçilərinin iştirakı nəzərdə tutulur.

Xatırladaq ki, Cənub Qaz Dəhlizinin Məşvərət Şurası çərçivəsində nazirlərin ilk toplantısı 2015-ci il fevralın 12-də, ikinci toplantı 2016-cı il fevralın 29-da, üçüncü toplantı 2017-ci il fevralın 23-də, dördüncü toplantı isə keçən il fevralın 15-də keçirilib.

Cənub Qaz Dəhlizi dünyada inkişaf etdirilən ən kompleks təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan Cənub Qaz Dəhlizinin seqmentlərini "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi, TANAP və TAP layihələri təşkil edir. Cənub Qaz Dəhlizi dünya neft-qaz sənayesində bu vaxtadək olan ən mühüm və iddialı layihələrdən biridir. Bu, çox sayda müxtəlif maraqlı tərəfləri, o cümlədən 7 hökuməti və 11 şirkəti özündə əhatə edən mürəkkəb bir hədəfdir. Cənub Qaz Dəhlizi ilk dəfə olaraq Xəzər regionundakı qaz təchizatını Avropa bazarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişəcək. Bu boru kəməri sistemi elə layihələndirilib ki, gələcəkdə mümkün əlavə qaz həcmlərinin təchiz edilə bilməsi üçün onun ötürücülük gücü öz ilkin ötürücülük gücünün iki misli qədər artırıla bilər.

Ötən il mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib və Azərbaycan təbii qazı Cənub Qaz Dəhlizi sisteminə vurulub. İyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilib. Bu boru kəmərləri zənciri Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunan təbii qazı Türkiyəyə və həmin ölkədən də Avropaya çatdıracaq. Uzunluğu 3 min 500 kilometr olan Cənub Qaz Dəhlizi vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya isə 10 milyard kubmetr Azərbaycan qazının nəqli planlaşdırılır.

TANAP-la Türkiyəyə 2019-cu ildə 2 milyard kubmetr, 2020-ci ildə 4 milyard kubmetr və 2021-ci ildə isə 6 milyard kubmetr Azərbaycan təbii qazı nəql ediləcək. Boru kəməri bu ilin birinci yarısında TAP qaz boru kəmərinə birləşmək üçün hazır olacaq. TANAP inşası üzrə işlərin təxminən 98 faizi icra olunub. TAP inşası üzrə isə işlərin 82 faizdən çoxu tamamlanıb.

# Dövlət Komitəsinin sədri Səudiyyə Ərəbistanı Krallığının Azərbaycana yeni təyin olunmuş səfiri ilə görüşüb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri (DQİDK) Mübariz Qurbanlı yanvarın 14-də Səudiyyə Ərəbistanı Krallığının Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyr ilə görüşüb.

Görüş zamanı səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən Dövlət Komitəsinin sədri ona fəaliyyətində uğurlar arzulayıb. Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında diplomatik əlaqələrin tarixinin müstəqilliyimizin ilk illərinə təsadüf etdiyini bildirən Mübariz Qurbanlı Ümummilli lider Heydər Əliyevin 1994-cü ildə Səudiyyə Ərəbistanına səfəri çərçivəsində keçirdiyi görüşlərin əlaqələrimizin inkişafında dönüş nöqtəsi olduğunu və bununla qarşılıqlı əməkdaşlığın təməlinin qoyulduğunu diqqətə çatdırıb. Hazırda bu əməkdaşlığın uğurla davam etdiyini bildirən Komitə sədri Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına səfərlərinin ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadığını bildirib. O, Səudiyyə Ərəbistanının Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalına münasibətdə tutduğu mövqeyinin, ölkəmizi beynəlxalq təşkilatlarda dəstəkləməsinin yüksək qiymətləndirildiyini vurğulayıb.



Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qonağı ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, DQİDK-nın fəaliyyəti barədə məlumatlandırıb. Bildirib ki, Azərbaycanda dini sahəyə daim diqqət və xüsusi qayğı göstərilir. Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasət dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlıq ənənələrinin, eyni zamanda xalqımızın milli-mənəvi dəyərlərinin daha da möhkəmlənməsinə yönəlib.

İki il öncə Səudiyyə Ərəbistanı Krallığına səfər etdiyini xatırladan Komitə sədri səfər çərçivəsində ölkələr arasında mövcud əlaqələrin genişləndirilməsi, dini ekstremizm və zorakılığın qarşısının alınması sahəsində birgə səylərin gücləndirilməsi, eləcə də qarşılıqlı təcrübə mübadiləsinin aparılması istiqamətində keçirilən görüşlərin önəminə toxunub.

Səmimi qəbula görə Dövlət Komitəsi sədrinə minnətdarlığını bildirən səfir Həməd bin Abdullah bin Səud bin Xudeyr Azərbaycana səfir təyin edilməsinin onun üçün sevindirici hal olduğunu deyib. Azərbaycanın sürətli inkişafına şahid olduğunu diqqətə çatdıran səfir ölkəmizdə dinlərarası münasibətlərin yüksək səviyyədə olmasından, nümunəvi tolerantlıq və multikulturalizm mühiti sərgiləməsindən məmnunluğunu ifadə edib. Diplomat təmsil etdiyi ölkənin Azərbaycanın haqlı mövqeyini dəstəkləməsini həm xalqının, həm də dövlətinin bu məsələyə olan ədalətli münasibətini əks etdirdiyini xüsusi vurğulayıb. Həməd bin Abdullah bin Səud bin Xudeyr ölkələrimiz arasında ənənəvi dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini qeyd edib.

Qarşılıqlı əməkdaşlığın perspektivlərinin müzakirə edildiyi görüşün sonunda səfirə DQİDK-nın ingilis və ərəb dillərində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim edilib.

# Prezident Administrasiyasının rəsmisi: Ermənistan "fait accompli" yanaşmasını tətbiq etməyə və işğalı möhkəmləndirməyə çalışır

İşğala əsaslanan status-kvo qəbuledilməzdir. Ermənistan "fait accompli" yanaşmasını tətbiq etməyə və işğalı möhkəmləndirməyə çalışır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "TRT World" televiziyasına müsahibəsində deyib.

Şöbə müdiri münaqişənin fundamental əsasını Ermənistanın gücdən istifadə edərək Azərbaycana qarşı törətdiyi işğalçılıq siyasəti təşkil etdiyini vurğulayıb, işğal olunmuş ərazilərdə Ermənistan tərəfindən azərbaycanlılara qarşı qanlı etnik təmizləmə törədildiyini, milyondan çox azərbaycanlının hələ də qaçqın və məcburi köçkün şəraitində yaşamaq məcburiyyətində qaldığını deyib. O əlavə edib ki, münaqişənin həllində irəliləyiş əldə etmək üçün, ilk növbədə, işğal faktı aradan qaldırılmalı və Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Münaqişənin həllinin əsasının BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, Helsinki Yekun Aktı və digər sənədlərdə təsbit olunduğunu deyən H.Hacıyev Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılmasından sonra münaqişənin siyasi həlli üçün imkanların yarana biləcəyini diqqətə çatdırıb.

Düşənbə Zirvə toplantısına toxunan şöbə müdiri Prezident İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında söhbətin olduğunu xatırladaraq




Azərbaycan Respublikasının öz konstruktiv mövqeyini bir daha nümayiş etdirdiyini bildirib. Əlavə edib ki, Azərbaycan münaqişənin həllində ən maraqlı tərəfdir. Belə ki, Azərbaycan 26 ildən çoxdur işğaldan əziyyət çəkir. Prezident Administrasiyasının rəsmisi hazırda münaqişənin həlli üçün əlverişli imkanların olduğuna diqqəti çəkərək Ermənistanın hökumət formalaşdıqdan sonra problemin həlli istiqamətində addımlar atmalı olduğunu qeyd edib.

Aparıcının "Etnik barışıq mümkündürmü" sualına cavab verən şöbə müdiri bildirib ki, Azərbaycan özünün multikultural dəyərləri və tolerantlıq mədəniyyəti ilə fəxr edir. Münaqişənin həlli prosesi çərçivəsində etnik barışıq çətin və vaxt tələb edən məsələ olsa da, bu, mümkündür. Bunun üçün, ilk növbədə, Ermənistan qoşunları işğal edilmiş ərazilərdən çıxarılmalı, azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması təmin olunmalıdır. Bu əsnada etimad quruculuğu tədbirləri həyata keçirilə, hərtərəfli regional əməkdaşlıq bərpa oluna və etnik barışıq təmin edilə bilər.

Hikmət Hacıyev hazırda Ermənistanın təcrid vəziyyətində olduğunu, nəqliyyat imkanlarına çıxışı olmadığını deyərək, münaqişənin həlli nəticəsində Ermənistanın regional əməkdaşlıq imkanlarından faydalana biləcəyini deyib. Eyni zamanda, o, Ermənistanın işğalçılıq siyasətindən əl çəkməli, qonşu dövlətlərə münasibətdə beynəlxalq hüquqa əsaslanan siyasət yürütməli və Ermənistan hakimiyyətinin öz xalqını qonşu dövlətlərlə sülhə hazırlamalı olduğunu diqqətə çatdırıb.

# Hikmət Hacıyev: Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu xarici siyasətimiz 2019-cu ildə də davam etdiriləcək

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dövlətimizin başçısı İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası ilə bağlı kütləvi informasiya vasitələrinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

**- Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirildi. İclasda dövlətimizin başçısı xarici siyasət məsələləri barədə ətraflı danışdı. Bununla bağlı nə deyərdiniz?**

- Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlətimizin başçısı proqram xarakterli nitqində beynəlxalq aləmdəki vəziyyət, xarici siyasətimizin gündəliyində olan məsələlər, ötən il əldə edilmiş nailiyyətlər və görülən işlər barədə əhatəli danışaraq xarici siyasət sahəsində də qarşıda duran yeni vəzifələri müəyyən etdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici və daxili siyasət biri digərini tamamlayır, Azərbaycanın siyasi və iqtisadi müstəqilliyini, xalqımızın firavanlığını, ölkəmizin təhlükəsizliyini və daha da güclənməsini təmin edir.

İclasda 2018-ci ildə xarici siyasətimizin uğurlarını diqqətə çatdıran Prezident İlham Əliyev əsas istiqamətləri təsnif etdi:

*- Azərbaycanın xarici siyasəti çoxşaxəlidir və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. 2018-ci il ərzində dövlətimizin başçısının xarici ölkələrə 16 səfəri, Azərbaycana 16 dövlət və hökumət başçısının səfəri bunun əyani sübutudur;*

*- Azərbaycan qonşu dövlətlərlə əlaqələrini yüksək pilləyə qaldırıb. Ölkəmiz düşünülmüş siyasət apararaq bütün qonşularla çox gözəl münasibətlər qurub. Hər bir ölkə üçün qonşu dövlətlərlə əlaqələrin inkişaf etdirilməsi çox vacib amildir. Bu, ölkə ətrafında xoşməramlı mühitin formalaşmasına, nəqliyyat, enerji layihələrinin icrasına və ticarət əlaqələrimizin inkişafına xidmət edir. Keçən il qonşu ölkələrin dövlət və hökumət başçıları ilə Prezidentimizin çoxsaylı görüşləri olub, bu görüşlər nəticəyönümlü xarakter daşıyıb və praktiki məsələlər həllini tapıb;*

*- Azərbaycan müsəlman aləmində böyük hörmət və nüfuza malikdir, İslam həmrəyliyinin inkişafı istiqamətində ölkəmizin atdığı addımlar, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində irəli sürdüyü təşəbbüslər İƏT-ə üzv dövlətlər tərəfindən yüksək qiymətləndirilir;*

*- Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafında keçən il Prezident İlham Əliyevin Brüsselə səfəri və səfər əsnasında Aİ ilə Azərbaycan arasında Tərəfdaşlıq Prioritetləri sənədinin imzalanması mühüm yer tutur. Bu sənəddə Avropa İttifaqı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı öz mövqeyini birmənalı şəkildə ortaya qoyur. Eyni zamanda, keçən il NATO-nun Zirvə görüşündə də qəbul edilmiş Yekun Bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək və hörmət əksini tapıb;*

*- Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanıb. Ölkəmizin uzun müddət müəyyən etdiyi mövqe bu sənəddə öz əksini tapıb. Bu sənədin imzalanması bir daha göstərir ki, Xəzər dənizi sülh, əməkdaşlıq, təhlükəsizlik dənizidir;*




*- Keçən il Azərbaycan Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin toplantısına ev sahibliyi etdi. Bu il ölkəmizdə Qoşulmama Hərəkatının Zirvə toplantısı təşkil olunacaq. 2019-2022-ci illərdə Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi həyata keçirəcək;*

*- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu məsələ yalnız ölkəmizin ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməli, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan tam və qeyd-şərtsiz çıxarılmalıdır;*

*- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan məsələlər çox müsbət xarakter alır. Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmətin ifadə olunduğu mövqe daha da gücləndirilir və beynəlxalq sənədlərdə bu, öz təsbitini tapır;*

*- Danışıqların davam etdirilməsi prosesi başlanıb, baxmayaraq ki, ilkin mərhələdə Ermənistanın yeni rəhbərliyi danışıqlardan boyun qaçırmaq istəyirdi. Hətta belə fikirlər səslənirdi ki, Azərbaycan qondarma rejimlə danışıqlar aparmalıdır. Biz dərhal belə cəhdləri rədd etdik. Əlbəttə ki, münaqişənin həlli ilə məşğul olan vasitəçilər də belə anlaşılmaz yanaşmanı heç cür dəstəkləyə bilməzdilər və öz fikirlərini bildiriblər. Nəticə etibarilə, danışıqlar prosesi bərpa edildi;*

*- Ermənistanda iyirmi il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş kriminal xunta rejimi süqut etdi. Bu, kriminal rejimin məntiqi acı sonu idi. Bu məsələdə əlbəttə ki, Ermənistanın işğalçılıq siyasəti də mühüm rol oynayır. Çünki məhz bu siyasətə görə Ermənistan biz tərəfdən bütün regional layihələrdən təcrid edildi. Bu işğalçılıq siyasətinə görə Ermənistan iqtisadiyyatı demək olar ki, çökdü. Ermənistan çox dərin demoqrafik böhran içindədir və depopulyasiya, yəni, əhalinin azalması prosesi geniş vüsət alıb. Azərbaycan dünyaya sübut etdi ki, onun apardığı siyasət düzgün siyasətdir. Ermənistan bütün layihələrdən təcrid edilib. Azərbaycan Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edir və edəcək, o vaxta qədər ki, torpaqlarımız azad olunmayıb. Bu siyasət öz nəticəsini verdi, kriminal rejim çökdü və Ermənistanda yeni vəziyyət yarandı.*

Müstəqil və uğurlu xarici siyasətimizin təməlində dövlətimizin başçısının müəyyən etdiyi uzaqgörən və düşünülmüş siyasət, verdiyi məntiqi əsaslı və hədəfli tapşırıq və təlimatlar, digər dövlət başçıları ilə keçirdiyi çoxsaylı və nəticəyönümlü görüşlər və səfərlər dayanır. Əminliklə deyə bilərik ki, 2019-cu ildə də Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu xarici siyasətimiz davam etdiriləcək.

**- Dövlətimizin başçısı Ermənistanın həyata keçirdiyi "konyak diplomatiyası", Avropa Şurası, Avropa Parlamenti və demokratiyadan danışan bir sıra beynəlxalq təşkilatların Ermənistandakı saxtakarlığa göz yumması məsələlərinə də toxundu. Bu barədə nə deyərdiniz?**

- Dövlətimizin başçısı tərəfindən qeyd olunduğu kimi, Ermənistan tərəfindən açıq şəkildə "konyak diplomatiyası" həyata keçirilir. Bu yolla Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası, həmçinin bəzi Qərb ölkələrinin qanunverici orqanlarındakı korrupsioner siyasətçilər ələ alınır və həmin şəxslər tərəfindən də Azərbaycana qarşı iyrənc şəkildə şər-böhtan və saxta məlumatlar əsasında təxribat həyata keçirilir. Məsələn bir nümunəni qeyd edək. Kriminal rejim tərəfindən 2017-ci ildə Ermənistanda keçirilmiş parlament seçkilərini müşahidə edən sözügedən təsisatların müşahidəçiləri yekun hesabatlarında seçkilərdə fundamental azadlıqların təmin olunduğunu iddia edirdilər. Həmin seçkilərdə kriminal xunta rejiminin nümayəndələri 50 faizdən çox səs almışdılar, son parlament seçkilərində isə 5 faiz səs belə yığa bilmədilər. Ermənistan xalqı sonradan həmin kriminal xunta rejimini siyasi səhnədən biabırçı şəkildə rədd etdi. Mənzərə tam aydın olur ki, sözügedən təsisatlarda təmsil olunan bir çox siyasətçilər Ermənistanın kriminal rejimi ilə müəyyən maddi maraqların, yəni, "konyak diplomatiyası"nın müqabilində şərik olaraq seçkilərin saxtalaşdırılmasında iştirak edir, sonra saxta hesablarla ona "demokratik" don geyindirirlər. İndi hansı əsasla həmin şəxslər demokratik dəyərlərdən danışırlar? Kriminal xunta rejiminə bu kimi hesabatlarla legitimlik verən həmin siyasətçilərin bir qismi hələ də sözügedən təsisatlarda təmsil olunmaqda davam edirlər. Brüsseldə Serj Sarkisyanla bir masa ətrafında oturub siyasi xarakterli kriminal əməlləri müzakirə edən, kriminal xunta rejiminin seçkilərini dəstəkləyən, işğal olunmuş ərazilərimizə qanunsuz səfərlər edən Avropa Parlamentinin üzvləri Yaroslav Stetina və Frank Engel kimi siyasətçilər indi hansı mənəviyyatdan danışa bilərlər? Ermənistanın "konyak diplomatiyası"nın maliyyə mənbəyini isə kriminal pullar təşkil edir. Burada kriminal fəaliyyətlə siyasi lobbizm bir-birini tamamlayacaq şəkildə inkişaf edir.

Bu gün Avropa ölkələrində, o cümlədən Almaniya, İspaniya, Çexiya və Belçikada "erməni mafiyası" adı altında geniş mütəşəkkil cinayətkar qruplaşmalar aşkar edilib. Bu mütəşəkkil cinayətkar qruplaşmalar yalnız kriminal fəaliyyətlə deyil, eyni zamanda, siyasi lobbizmlə də məşğul olublar. Həmin kriminal qruplaşmaların bəzi üzvləri Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən verilən diplomatik pasportlarla həbs olunublar. Erməni mafiyası ilə əlaqədar aparılan cinayət işində Azərbaycana qarşı kampaniya həyata keçirən, işğal olunmuş ərazilərimizə qanunsuz səfər edən bir sıra siyasətçilərin adları hallanmaqdadır. Eyni zamanda, bu proseslərdə Ermənistanın bir sıra səfirlərinin də adı keçir.

Hesab edirik ki, Avropa Şurası Parlament Assambleyası və Avropa Parlamentinin, həmçinin bir sıra Qərb ölkələrinin parlamentlərinin etik komitələri parlament üzvlərinin və siyasətçilərin bu kimi qanunsuz və korrupsiyalaşmış fəaliyyətlərini ifşa edən araşdırmalar aparmalıdırlar. Həmçinin bu çərçivədə anti-Azərbaycan kampaniyaların kökləri araşdırılmalıdır. Əks təqdirdə, hər hansı ədalətdən və ya demokratik dəyərlərdən danışmaq qeyri-mümkündür.

# Prezident İlham Əliyevin inkişaf və quruculuq siyasəti ölkəmizə bundan sonra da böyük nailiyyətlər qazandıracaq



*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini Mübariz Qurbanlı www.yap.org.az saytına müsahibə verib:*

**- Mübariz müəllim, 2018-ci il Azərbaycan üçün mühüm uğurlar və əlamətdar hadisələrlə yadda qaldı. Ötən ilin yekunlarını necə xarakterizə etmək olar?**

- Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan 2018-ci ildə iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə etdi, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmləndi. Ötən ilin ən mühüm-əlamətdar hadisəsi prezident seçkilərinin keçirilməsi və cənab İlham Əliyevin növbəti dəfə möhtəşəm qələbə qazanması oldu. Azərbaycan xalqı növbəti dəfə cənab İlham Əliyevə yüksək etimad göstərdi və bir daha sabitliyə, inkişafa səs vermiş oldu. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi yolla irəliləyir. Bunun ən başlıca səbəbi Azərbaycanda həyata keçirilən siyasətin xalqın mənafeyini tam ifadə etməsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə, eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması istiqamətində qətiyyətli siyasət davam etdirilir. 2016-cı ildə aprel döyüşləri Azərbaycanın prinsipial mövqeyindən bir addım da geri çəkilməyəcəyini, öz ərazi bütövlüyünü bərpa etmək əzmində və gücündə olduğunu, düşmən üzərində hərbi, siyasi, iqtisadi və mənəvi-psixoloji üstünlüyünü bir daha sübuta yetirdi. Bu reallıqlar, həmçinin Ermənistanda hərbi xunta rejiminin çöküşündə mühüm rol oynadı. Azərbaycan Ermənistanı regionda təcrid vəziyyətinə salıb, bunun nəticəsində işğalçı ölkə iqtisadi və siyasi böhrana sürüklənib.

Ümumiyyətlə, müstəqilliyinin 28-ci ilinə qədəm qoyan Azərbaycan bu müddət ərzində çox mühüm nailiyyətlərə imza atıb. Azərbaycan bu gün həm regionda, həm də beynəlxalq müstəvidə öz yeri, rolu və xüsusi çəkisi olan ölkədir. Respublikamızın beynəlxalq təşkilatlarda da nüfuzu çox yüksəkdir, Azərbaycan bu ildən etibarən Qoşulmama Hərəkatına sədrlik edəcək, bu, ölkəmizin çox mühüm diplomatik nailiyyətidir. Azərbaycanın beynəlxalq müstəvidə əməkdaşlıq və təhlükəsizliyə verdiyi fundamental töhfələrdən bəhs edərkən ölkəmizin iqtisadi baxımdan bölgədə həlledici rola malik olduğunu xüsusi vurğulamaq lazımdır. Bunun əyani ifadəsi kimi ölkəmizin təşəbbüsü və liderliyi ilə reallaşdırılan qlobal xarakterli layihələrin nəticələrini göstərmək olar.

Azərbaycan müsəlman aləmində çox böyük hörmətə, nüfuza malikdir, İslam həmrəyliyinə müstəsna töhfələr verir. 2018-ci ildə də Azərbaycan bu istiqamətdə ardıcıl və məqsədyönlü fəaliyyətini uğurla davam etdirib. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd etdi ki, bizim İslam həmrəyliyi ilə bağlı atdığımız addımlar İslam Əməkdaşlıq Təşkilatı və eyni zamanda, bir çox müsəlman ölkələri tərəfindən çox yüksək qiymətləndirilir və bu sahədə verdiyimiz töhfə çox təsirlidir. **"Yəni bizim apardığımız siyasət İslam aləmində həmrəyliyi, əməkdaşlığı möhkəmləndirir. Həm ölkə daxilində, həm xaricdə bu istiqamətdə keçirdiyimiz tədbirlər İslam birliyini daha da möhkəmləndirir"**, - deyə dövlətimizin başçısı vurğulayıb.

2018-ci ildə Prezident İlham Əliyevin sosialyönümlü dövlət quruculuğunun təmin olunması istiqamətində apardığı uğurlu siyasət nəticəsində əhalinin sosial rifah halı yaxşılaşıb, işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb. Cənab Prezidentin apardığı bu siyasət bir daha sübut edir ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial baxımdan aztəminatlı təbəqəsi daim dövlətin diqqət mərkəzindədir. Sosial sahədə büdcə vəsaitlərinin ildən-ilə artırılması bu sahəyə Azərbaycan Prezidentinin qayğısını bir daha təsdiq edir. Bütün bunlar göstərir ki, güclü iqtisadi və sosial siyasət Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycan Respublikasında qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması istiqamətində həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sektorun potensial imkanları genişlənib, yeni istehsal sahələri yaradılıb, idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına qeyri-neft məhsulları ilə təminolunma səviyyəsi yüksəlib, ixrac qabiliyyəti artıb. İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması, qeyri-neft ixracının artırılması və dünya iqtisadiyyatına inteqrasiya istiqamətində həyata keçirilən siyasət növbəti 10 ildə qeyri-neft sektorunun əvvəlki onilliklə müqayisədə daha çox artacağını şərtləndirir.

Bütövlükdə, 2018-ci il Azərbaycan üçün çox mühüm nailiyyətlərlə yadda qaldı. Prezident İlham Əliyev yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında 2018-ci ilin ölkəmiz üçün uğurlu il olduğunu, dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycanın uğurla, sürətlə inkişaf etdiyini, keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələrin icra olunduğunu, ölkəmizin hərtərəfli dinamik inkişafının təmin edildiyini diqqətə çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu, inkişaf yolu ilə uğurla gedir və gedəcək. Əlbəttə, bütün bu nailiyyətlər qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsinə imkanlar yaradır. Azərbaycan Prezidenti İlham Əliyevin inkişaf və quruculuq siyasəti ölkəmizə bundan sonra da böyük nailiyyətlər qazandıracaq.

**- Yeni Azərbaycan Partiyasının 2018-ci ildə fəaliyyəti nə ilə yadda qaldı?**

- Azərbaycan Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dinamik inkişaf edir, mütəmadi olaraq çox mühüm nailiyyətlər əldə edir. Ümummilli lider Heydər Əliyevin qurucusu olduğu, Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası da Azərbaycanın inkişafına öz layiqli töhfəsini verir. Ümumiyyətlə, YAP öz fəaliyyətini Heydər Əliyev ideyaları əsasında davam etdirir, Heydər Əliyev yolu ilə irəliləyir. Prezidentin siyasətinin həyata keçirilməsi və təbliğində aparıcı - avanqard rol Yeni Azərbaycan Partiyasına məxsusdur.

2018-ci ilin ən mühüm və əlamətdar hadisələrindən biri Yeni Azərbaycan Partiyasının VI Qurultayının keçirilməsi oldu. Qurultay Prezident İlham Əliyevin şəxsində Azərbaycanın inkişaf perspektivlərinə etibarlı təminatı nəzərə alaraq cənab İlham Əliyevin prezident seçkilərində namizədliyinin irəli sürülməsi barədə qərar qəbul etdi. Aprelin 11-də keçirilən seçkilərdə isə partiyamızın Sədri cənab İlham Əliyev növbəti dəfə möhtəşəm qələbə qazandı. YAP-ın seçki təcrübəsini və xalq tərəfindən dəstəklənməsini nəzərə alaraq qeyd edə bilərik ki, Yeni Azərbaycan Partiyası bu il keçiriləcək bələdiyyə seçkilərində də yüksək nəticələr əldə edəcək.

YAP zamanın sınaqlarından uğurla çıxmış və əhəmiyyətli nailiyyətlərə imza atmış ümumxalq partiyasıdır. Yeni Azərbaycan Partiyasının qarşısında duran hədəflər milli maraqlara əsaslanan və dövlətin qarşısında duran hədəflərdir, partiyanın hər bir üzvü bu hədəflərin reallaşması üçün çalışır. Cənubi Qafqazın ən böyük və mütəşəkkil siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələri də yüksələn xətt üzrə inkişaf edir. YAP 51 ölkənin siyasi partiyalarının təmsil olunduğu "Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı" təşkilatının (İCAPP) Daimi Komitəsinin üzvüdür, partiyamızın Avropanın bir sıra nüfuzlu siyasi partiyaları ilə geniş əlaqələri mövcuddur.

YAP-ın üzvləri müxtəlif sahələrdə - elm, təhsil, mədəniyyət və digər sahələrdə, dövlət idarəçiliyində uğurla təmsil olunurlar, o cümlədən beynəlxalq müstəvidə ölkəmizi müvəffəqiyyətlə təmsil edirlər. YAP gəncləri bu gün sosial şəbəkələrdə Azərbaycanın milli maraqlarının qorunmasında ardıcıl və səmərəli fəaliyyət göstərirlər. Məlumdur ki, Azərbaycanın qazandığı uğurlar bəzi dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Onlar ölkəmizin müsbət beynəlxalq imicinin və uğurlarının üzərinə kölgə salmağa çalışırlar. Bu məqsədlə ayrı-ayrı media orqanlarında və sosial şəbəkələrdə Azərbaycana qarşı qarayaxma kampaniyası aparırlar. Əlbəttə, bu cəhdlər əbəsdir. Azərbaycan müstəqil, milli maraqlara əsaslanan siyasət yeridir və ölkəmizin müstəqil siyasətinə, inkişaf yolunda irəliləməsinə təsir etmək mümkün deyil...

**- Yeri gəlmişkən, son zamanlar sosial şəbəkələrdə anti-Azərbaycan dairələr və "beşinci kolon" tərəfindən ölkəmizə qarşı qarayaxma kampaniyasının aparılması ilə bağlı nə deyə bilərsiniz?**

- Ölkəmizdə uğursuzluğa düçar olmuş və milli maraqlara zidd hərəkətləri ilə özlərini ifşa etmiş bəzi adamlar xaricə üz tutaraq Azərbaycan əleyhinə qarayaxma kampaniyasında iştirak edir, sosial media vasitəsilə həqiqətə uyğun olmayan, uydurma, böhtan xarakterli məlumatlar yayırlar. Əlbəttə, Azərbaycan cəmiyyəti belələrini dəstəkləmir, onların öz uğursuzluqlarını ört-basdır etmək üçün yalan məlumatlar dövriyyəyə buraxdıqlarını, anti-milli çağırışlar səsləndirdiklərini bilir. Ümumiyyətlə, bu cür cəhdlər faydasız və nəticəsizdir, iflasa məhkumdur, çünki Azərbaycanda xalq-iqtidar birliyi mövcuddur, ölkəmizdə sabitlik və inkişaf hökm sürür. Azərbaycan xalqı reallıqları görür və yüksək qiymətləndirir. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçərək regionun lider dövlətinə çevrilib, paytaxt Bakının və regionların siması əhəmiyyətli dərəcədə dəyişilib, əhalinin sosial müdafiəsi daha da gücləndirilib və bütün bunlar Azərbaycanın qüdrətinin artmasını təmin edib. Bütün bu reallıqları görən hər bir vətəndaş Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti yüksək qiymətləndirir, bu siyasətin Azərbaycanın gələcək inkişafının əsası olduğunu anlayır və dövlətimizin başçısına, Onun siyasətinə böyük inamını ifadə edir. Ona görə də Azərbaycan əleyhinə qarayaxma kampaniyası aparanlar, o cümlədən sosial şəbəkələrdə yalan məlumatlar yayanların "fəaliyyət"i xalq tərəfindən ciddi narazılıqla qarşılanır. Ədliyyə Nazirliyi yanında İctimai Komitənin üzvlərinin həbsdə olan bloger Mehman Hüseynovla görüşməsi məhz "beşinci kolon" nümayəndələri tərəfindən səsləndirilən iddiaların yalan və böhtan xarakterli məlumatlardan ibarət olduğunu bir daha sübuta yetirdi.

**- Mübariz müəllim, Azərbaycanda dini durum yüksək qiymətləndirilir, din-dövlət münasibətləri mütərəqqi nümunə kimi dəyərləndirilir. Ölkəmiz dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınır. Bu barədə fikirləriniz nədən ibarətdir?**

- Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin dövlət-din münasibətləri sahəsində qoyduğu bu nümunəvi siyasətin Onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Dövlətimizin başçısının sərəncamları ilə son illər tarixi dini abidələr, ziyarətgahlar bərpa edilir, milli-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisi olaraq silsilə tədbirlər keçirilir. Mənəvi Dəyərlərin Təbliği Fondunun və Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu diqqət və qayğının parlaq nümunəsidir.

Azərbaycanda din-dövlət münasibətləri nümunəvi xarakter daşıyır, tolerantlıq və multikultural mühit hökm sürür. Son hesablamalara görə, ölkə ərazisində 2250 məscid mövcuddur, eləcə də 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Ölkə ərazisində 23 xristian dua evi, 1 bəhai, 1 krişna ibadətgahı mövcuddur. 2018-ci ildə dini icmaların dövlət qeydiyyatına alınması prosesi davam etdirilib, onların ümumi sayı 909-a çatıb. Onlardan 877-si İslam, 32-si qeyri-islam təmayüllüdür. Sonunculardan 21-i xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru dini icmasıdır.

Biz ötən il də Prezident İlham Əliyevin siyasətində tolerant və multikultural dəyərlərin əhəmiyyətli yer tutduğuna bir daha şahid olduq. Ölkə rəhbərliyinin dəstəyi ilə 2018-ci ildə də müxtəlif xarici ölkələrdə Azərbaycanın multikultural dəyərlərinin təbliği və təşviqi ilə əlaqədar beynəlxalq konfranslar keçirilib ki, bu tədbirlər coğrafi olaraq çox geniş ərazini əhatə edib. İspaniya, Avropanın müxtəlif ölkələri, Almaniya və başqa ölkələrdə təşkil edilən tədbirlərdə Azərbaycanın multikultural dəyərləri ətraflı şəkildə insanlara çatdırılıb. Dövlətimizin başçısı İlham Əliyevin dəstəyi ilə reallaşan beynəlxalq tədbirlər insanların multikulturalizm və tolerantlıq ruhunda maarifləndirilməsinə, dünyada sülhün və əməkdaşlığın təşviqinə mühüm töhfə verib. Ölkə rəhbərinin bu istiqamətdə atdığı addımlar, söylədiyi fikirlər, verdiyi qərarlar bütün İslam dünyasında geniş əks-səda doğurmaqla bərabər, bizə gələcək fəaliyyətimizdə böyük stimul verir və verməkdədir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, İslam dininə hörmət və ehtiramın güclənməsi, başqa dinlərə qarşı dözümlülüyün daha da möhkəmləndirilməsi sahəsində xeyli iş görülüb. Dövlət başçımız İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, məscid və ziyarətgahların, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ilə bağlı bir sıra sərəncam və fərmanlar imzalayıb. Ölkəmizdə mövcud olan digər dinlərin nümayəndələri də dövlət başçımızın diqqət və qayğısından kənarda qalmırlar. Dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə münasibətində, din sahəsini ehtiva edən qanunvericilik bazasının möhkəmləndirilməsində də açıq şəkildə görmək mümkündür.

Azərbaycan dünyada öz mədəniyyəti, tarixi, adət-ənənələri ilə fəxr etməyə layiq olan az sayda dövlətlərdən biridir. Tolerantlığın dövlət strategiyası olaraq əsasını Ümummilli lider Heydər Əliyev qoymuş, bu zəngin ənənə hazırda möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox böyük diqqət və qayğı göstərir.

Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Bu gün öz nümunəvi dəyərlərini bütün dünyaya təqdim edən Azərbaycan əlverişli coğrafi mövqeyindən və çoxmədəniyyətlilik ənənələrindən istifadə edərək artıq dünyada ən mühüm dialoq mərkəzlərindən birinə çevrilib. Son illər həm lokal, həm də qlobal əhəmiyyətli çoxsaylı sammitlərin, forumların, konfrans və seminarların ölkəmizdə təşkil olunması tamamilə məntiqəuyğundur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun gördüyü işlər - ibadət evlərinin təmiri və yenidən qurulması, Azərbaycanın tolerant və multikultural dəyərlərinin dünyaya çatdırılması istiqamətində həyata keçirilən tədbirlər müstəsna əhəmiyyətə malikdir.

**- Dini maarifləndirmə istiqamətində hansı tədbirlər həyata keçirilir?**

- Təcrübə göstərir ki, bu gün dini sahədə ortaya çıxan əksər problemlərin kökündə dini savadsızlıq, İslamın olduğu kimi təqdim edilməməsi dayanır. Məhz bu səbəbdən Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinə xüsusi önəm verir. Çünki dini maarifləndirmə düzgün aparıldığı zaman dini təhlükəsizlik və ictimai-siyasi sabitlik təmin olunur, tolerantlıq ənənələrinin inkişafına təkan verilir, dini zəmindəki ziddiyyətlərin, dövlətlər və xalqlar arasındakı qarşıdurmaların qarşısı alınır.

Maarifləndirmə işi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Dövlət Komitəsi ölkədə dövlət-din münasibətlərinin, dini etiqad azadlığının yüksək səviyyədə təmin olunması, dini radikalizm meyillərinin qarşısının alınması, o cümlədən milli-mənəvi dəyərlərimizin, ölkədəki zəngin tolerantlıq və multikulturalizm mühitinin qorunub saxlanılması məqsədilə dini maarifləndirmə işi aparır. Bu məqsədlə komitənin "Dövlət və Din" ictimai fikir toplusu və "Cəmiyyət və Din" qəzeti nəşr olunur; dini radikalizm, ekstremizm, fanatizm və xurafat meyillərinin qarşısını almaq, eyni zamanda milli-mənəvi dəyərləri təbliğ etmək məqsədilə kitab, broşür və digər çap məhsulları hazırlanır; İctimai TV-də hər həftə "Din və Cəmiyyət" verilişi, Space TV-də "İnam" verilişi efirə gedir; ölkəmizin bütün regionlarında dini sahə ilə bağlı aktual olan mövzularda ictimaiyyətlə, dindarlarla silsilə konfranslar, seminar-treninqlər, "dəyirmi masa"lar təşkil edilir. Eyni zamanda, keçirilən əksər tədbirlərdə Dövlət Komitəsinin sifarişi ilə ərsəyə gəlmiş, dini radikalizmə qarşı mübarizənin psixoloji, hüquqi, siyasi və mənəvi aspektlərindən bəhs edən "Fitnə", Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş "Şəhadət", İslam dininin sülhsevərliyindən, tolerantlığından bəhs edən "Üfüqdəki gələcək" və bu günlərdə ictimaiyyətə təqdim olunmuş Azərbaycanda dinlər, məzhəblər arasında tarixən mövcud olmuş birlik və bərabərlik, xalqımızın tolerantlıq keyfiyyətləri işıqlandırılmış "Vəhdət qanımızdadır" sənədli filmləri nümayiş olunur. Ölkənin bütün regionlarında, o cümlədən ölkəmizdəki ali təhsil müəssisələrində, orta məktəblərdə, gənclər evlərində və s. müvafiq məkanlarda nümayiş etdirilən filmlər ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır.

Ümumilikdə idxalla bağlı 2018-ci ildə Dövlət Komitəsinə daxil olmuş müraciətlər əsasında 1704 adda dini məzmunlu ədəbiyyata baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 52 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınmışdır. Ölkədə nəşr olunmaq məqsədilə təqdim edilmiş 192 adda dini ədəbiyyata baxılaraq, onlardan 26-nın çapı məqsədəuyğun sayılmamışdır. 2018-ci ildə Dövlət Komitəsi ayrıca və digər qurumlarla birgə ümumilikdə 600-ə yaxın tədbir həyata keçirmişdir. 50 mindən artıq insanın iştirak etdiyi bu tədbirlərdə rayon icra hakimiyyətləri, təhsil müəssisələri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, rayonlarda yerləşən Heydər Əliyev Mərkəzləri, Yeni Azərbaycan Partiyası və YAP-ın Gənclər Birliyi, eləcə də Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları və silahlı qüvvələri ilə yaxından əməkdaşlıq edilmişdir.

## Məlahət İbrahimqızı: Qazanılan nailiyyətlər 2019-cu ildə ölkəmizin daha böyük uğurlar əldə etməsi üçün ciddi baza yaradır

**"Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ötən ilin uğurları ilə bağlı mühüm faktlar diqqətə çatdırıldı".** Bu fikri Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü Məlahət İbrahimqızı deyib.



M.İbrahimqızı bildirib ki, ötən il qazanılan nailiyyətlər yeni başlayan 2019-cu ildə ölkəmizin daha böyük uğurlar əldə etməsi üçün ciddi baza yaradır. Onun sözlərinə görə, Azərbaycanın iqtisadi-siyasi uğurlarını əsaslandıran amillər möhkəm siyasi sabitliyin olması, iqtisadiyyatın şaxələndirilməsi ilə əhatəli islahatların həyata keçirilməsidir.

**"Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət ölkəmizin dayanıqlı iqtisadi yüksəlişini təmin etməkdədir. 2018-ci ildə ölkəmizin sosial-iqtisadi inkişafı uğurla davam edib, iqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə mühüm irəliləyişlərə nail olunub, əhalinin rifah halının daha da yüksəldilməsi təmin edilib, ictimai-siyasi sabitlik tam təmin olunub, ölkəmizin beynəlxalq nüfuzu daha da yüksəlib, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artıb"**, - deyə YAP Siyasi Şurasının üzvü vurğulayıb.

## YAP Ağcabədi rayon təşkilatının yaradılmasının 24 illiyi münasibətilə tədbir keçirilib

Yeni Azərbaycan Partiyası (YAP) Ağcabədi rayon təşkilatının yaradılmasının 24 illiyi münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ulu öndər Heydər Əliyevin rayondakı abidəsi önünə tər çiçək dəstələri düzərək, Onun əziz xatirəsini ehtiramla yad ediblər.




Sonra rayon təşkilatının inzibati binasında davam edən tədbiri giriş sözü ilə açan YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov partiyanın yaranması, inkişafı, həmçinin ölkənin ictimai-siyasi həyatında oynadığı rol barədə ətraflı məlumat verib. Çıxışında rayon təşkilatının fəaliyyəti barədə də danışan natiq partiya üzvlərinin rayonun ictimai-siyasi və mədəni həyatında, abadlıq-quruculuq işlərində fəal iştirak etdiklərini deyib.

Sonra Ağcabədi rayon Statistika idarəsinin müdiri, ərazi ilk partiya təşkilatının sədri Elsevər İsmayılov, Ağcabədi rayon Telekommunikasiya Qovşağının müdiri, ərazi ilk partiya təşkilatının sədri İbrahim Həsənov, rayon Mərkəzi Xəstəxanasının həkimi YAP fəalı Könül Hüseynova məruzə ətrafında çıxış ediblər. Çıxışlarda xüsusi olaraq bildirilib ki, Ulu öndər Heydər Əliyevin ideyalarının layiqli davamçısı Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyən ağcabədililər partiya sıralarına həvəslə daxil olurlar.

Tədbirdə YAP sıralarına yeni qəbul edilmiş bir qrup gəncə partiyanın üzvlük vəsiqələri verilib, həmçinin partiya işində və rayonun ictimai-siyasi həyatında fərqlənən YAP fəallarına fəxri fərmanlar təqdim edilib.

# "Ağ şəhər" Rəsm Qalereyasında gənc rəssam Fidan Əliyevanın "Həyat şəfqəti" adlı fərdi sərgisi açılıb



Yanvarın 14-də Bakının yeni cəlbedici məkanlarından olan "Ağ şəhər" Rəsm Qalereyasında gənc rəssam Fidan Əliyevanın rəngkarlıq əsərlərindən ibarət "Həyat şəfqəti" adlı fərdi sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, sərginin açılış mərasimində çıxış edən Mədəniyyət Nazirliyinin sektor müdiri Qalib Qasımov rəssamın yaradıcılıq axtarışlarından söhbət açıb. Bildirib ki, gənc olmasına baxmayaraq, məzmunlu rəsm əsərləri ilə diqqət çəkən Fidan Əliyevanın bu fərdi sərgisi həm də onun sənətsevərlərə növbəti yaradıcılıq hesabatıdır.

**"Bu gün Fidan Əliyevanın fərdi sərgisinin açılışına toplaşmışıq. Rəssam Azərbaycanın mədəni mühitində yaxşı tanınır. Bu sərgini yeni yaradıcılıq hesabatı da adlandırmaq olar. Sərgidə nümayiş olunan əsərlər rəssamın özünəməxsus yanaşma tərzini göstərir. Fidan xanım ətrafda gördüyü bütün gözəllikləri əsərləri vasitəsilə insanlara çatdırmağa çalışır. Filan Əliyevanın yaradıcılıq karyerasında bir neçə sərgi var. 2016-cı ildə Muzey Mərkəzində rəssamın "Günəşə doğru" adlı ilk fərdi sərgisi açılıb. 2017-ci ildə növbəti sərgi xaricdə - Tbilisidə reallaşıb. Bir ildən sonra Fidan Əliyevanın ilk əsəri Luvrda Azərbaycan rəssamlarının vernisajında nümayiş etdirilib. Həmin il Fidan həm də Bakıda "White Studio Gallery" və "Art Tover" qalereyalarında gerçəkləşən iki qrup sərgisində iştirak edib"**, - deyə Q.Qasımov vurğulayıb.

Sərgidə nümayiş olunan əsərlərin orijinallığı ilə seçildiyini söyləyən Xalq rəssamı Səlhab Məmmədov sərginin əhəmiyyətindən danışıb. Bildirib ki, bu, gənc rəssamın sayca üçüncü sərgisidir. Bu əsərlərin içində peyzaj və natürmort janrında olanlar üstünlük təşkil edir. Sərgi rəssamın gənc olmasına baxmayaraq, əsl peşəkarlığından xəbər verir.

Fidan Əliyevaya yeni yaradıcılıq uğurları arzulayan S.Məmmədov onun gələcəkdə ölkənin ən tanınmış fırça ustalarından biri olacağına inamını ifadə edib.

Gənc rəssamın yaradıcılığından danışan müəllimi, Xalq rəssamı Sakit Məmmədov qeyd edib ki, sərgilənən əsərlərdə daim axtarışda olan, fərqli yaradıcılıq üslubuna malik rəssamın dəstxətti aydın görünür.

S.Məmmədov tələbəsinin istedadından və yaradıcılığından söz açıb. Sərginin əhəmiyyətindən danışaraq, tələbəsinin sənətə sevgisindən, onun yaratdığı hər bir əsərin mükəmməlliyindən bəhs edən Xalq rəssamı S.Məmmədov Fidan xanıma gələcək yaradıcılığında uğurlar arzulayıb.

Tədbirdə Əməkdar rəssam Rəşad Mehdiyev, rəssamlar Turan Muxtarzadə və Cəmilə Haşımova gənc fırça ustasının sənət dünyasından söz açaraq, ona yeni yaradıcılıq uğurları arzulayıblar.

Sərginin təşkilatçılarına və açılış mərasiminin iştirakçılarına minnətdarlığını bildirən Fidan Əliyeva yaradıcılıq axtarışlarını davam etdirəcəyini, sənətsevərlərin qarşısına yeni əsərlərlə çıxacağını söyləyib. Rəssam deyib: **"Mən tamaşaçılara pozitiv emosiyalar bəxş etməyə çalışıram. Bu səbəbdən əsasən gülləri təsvir edirəm. Çalışıram ki, güllər insanlarda ən gözəl hisslər yaratsın, onları biganə və soyuq olmamağa, yaşanan hər bir anı qiymətləndirməyə çağırsın. Bir sözlə, istəyirəm ki, əsərlərim insanlarda yaşamaq arzusunu oyatsın. Güllər Günəşə doğru can atdığı kimi, insanlar da həyata - yaşamağa doğru can atmalı, məyusluğa və problemlərə təslim olmamalıdır. Bu işdə onlara kömək etmək, xeyirxahlıq, sevgi və sevinc enerjisini bölüşmək istəyirəm".**

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

Sərgidə təsviri sənətdə öz sözünü cəsarətlə deyən Fidan Əliyevanın 40-a yaxın əsəri nümayiş etdirilib. Onun tablolarına düşündürücü kompozisiya həlli və stilistik müxtəliflik xasdır. Əsərlərindən görünür ki, gənc rəssam daha parlaq çalarlarla işləməyə üstünlük verir. Rəssamın hər bir əsəri avtoportret təsiri bağışlayır və bütün tablolardan sanki onun əhval-ruhiyyəsi və hissləri süzülür. Bu



hisslər bəzən o dərəcədə qabarıq nəzərə çarpır ki, tamaşaçı tablonun qarşısında ayaq saxlamalı olur. Onun əsərlərində rəng palitrası daha zəngin, bəzən isə təzadlar üzərində qurulur. F.Əliyevanın əsərlərinin mövzu dairəsi genişdir - güllər və yetişmiş meyvələri təsvir edən natürmortlar günəşli yay və həzin payız mənzərələri ilə əvəzlənir. Rəssam sanki yaradıcılıq azadlığı havasını hiss edərək təxəyyülündə olanları tablolara köçürür.

Bakıda dünyaya göz açan rəssam ADA Universitetinin məzunudur. Xüsusi rəssamlıq təhsili olmayan bu gənc sənətin sirlərinə Azərbaycan Memarlıq və İnşaat Universitetində fərdi rəsm məşğələlərində, Xalq rəssamı Sakit Məmmədovun emalatxanasında, Londonda Müqəddəs Martin adına İncəsənət və Dizayn Kollecində incəsənət kurslarında yiyələnib.

Müəllifin yaradıcılığında Azərbaycan təbiətinin gözəlliyini əks etdirən əsərlər də xüsusi yer tutur. Bu mövzudakı hər bir əsərində Vətənə böyük sevgi ilk baxışda nəzərə çarpır. Bir sözlə, Fidan kimi gənc və istedadlı rəssamların yaradıcılığı Azərbaycan təsviri sənətinin gələcəyi barədə nikbin fikir söyləməyə əsas verir.

Böyük maraqla qarşılanan sərgi yanvarın 21-dək davam edəcək.

# Beynəlxalq olimpiadalara hazırlıq mərkəzinə mediatur keçirilib



Yanvarın 12-də Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyindəki beynəlxalq olimpiadalara hazırlıq mərkəzinə mediatur keçirilib.

AZƏRTAC xəbər verir ki, mediaturda Milli Məclisin deputatları, media qurumlarının rəhbərləri və jurnalistlər iştirak ediblər.

Mediatur iştirakçılarına məlumat verilib ki, Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən, Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü və Kimya, biologiya təmayüllü Respublika liseylərinin, eləcə də Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın nəzdində beynəlxalq olimpiadalara hazırlıq mərkəzləri yaradılıb. Dördüncü ildir fəaliyyət göstərən həmin mərkəzlərə Azərbaycanın müxtəlif bölgələrindən və paytaxt məktəblərindən 300-dən çox şagird cəlb edilib.

Hazırlıq mərkəzlərinin yaradılmasında məqsəd istedadlı şagirdlərin üzə çıxarılması, Azərbaycan məktəblilərinin iştirak etdikləri beynəlxalq fənn olimpiadalarında nailiyyətlərin artırılmasıdır. Mərkəzlərə yerli və xarici ali məktəblərin, Azərbaycan Milli Elmlər Akademiyasının tanınmış alimləri və qabaqcıl müəllimlər cəlb olunub. İnformatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi "Azercell Telecom" şirkətinin nəzdində olan Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi ilə sıx əməkdaşlıq qurulmaqla həyata keçirilir.

Mediatur zamanı Təhsil İnstitutunun şöbə müdiri Fuad Qarayev beynəlxalq olimpiadalara hazırlıq mərkəzlərində təhsilin inkişafı üçün reallaşdırılan tədbirlərdən, qazanılan nailiyyətlərdən danışıb.

Bildirilib ki, vaxtilə beynəlxalq olimpiada qalibi olmuş məzunlardan ali təhsillərini Bakıda davam etdirənlər ilboyu, ölkədən kənarda oxuyanlar isə qış və yay tətillərində yeni nəsil olimpiadaçıların yetişdirilməsində yaxından iştirak edirlər. Bu ildən etibarən ABŞ-ın Stenford Universitetinin məzunu, hazırda həmin ölkədə çalışan Cəfər Cəfərov şagirdlərimizə həftədə 2 dəfə onlayn dərs keçir.

Beynəlxalq olimpiadalara hazırlıq mərkəzlərində şagirdlərlə fizika, riyaziyyat, kimya, biologiya və informatika olmaqla ümumilikdə 5 fənn üzrə hazırlıq aparılır. Aşağı və yuxarı yaş qruplarında hazırlıq dərsləri əsasən şənbə-bazar günləri və ya həftə ərzində dərsdən sonra təşkil edilir.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Milli Məclisin deputatı Aydın Mirzəzadə Stenford Universitetinin məzunu Cəfər Cəfərova videobağlantıya qoşularaq, ölkəmizdə aparılan təhsil islahatlarından və onun əhəmiyyətindən danışıblar. Deputatlar, eyni zamanda, müasir dünyada təhsilin mühüm rolunu vurğulayıb, bu sahənin inkişafı və qazanılan uğurlarla bağlı fikirlərini qeyd ediblər. Cəfər Cəfərov beynəlxalq olimpiadalara hazırlıq mərkəzlərinin təhsilə töhfə verəcəyinə əminliyini vurğulayıb.

Xatırladaq ki, Azərbaycan məktəbliləri hər il 15-dək müxtəlif beynəlxalq olimpiada və müsabiqədə iştirak edirlər. 2017-2018-ci tədris ilində şagirdlərimiz beynəlxalq fənn olimpiadalarında 1 qızıl, 8 gümüş və 20 bürünc medal olmaqla ümumilikdə 29 medal və 7 həvəsləndirici sertifikat qazanıblar. Təhsil nazirinin müvafiq əmrinə əsasən, ölkə üzrə istedadlı şagirdlərlə işin genişləndirilməsi məqsədilə pilot layihə kimi 15 rayonun 48 məktəbində 60 xüsusi sinif yaradılıb. Bu siniflərin yaradılmasında əsas məqsəd istedadlı şagirdlərlə məqsədyönlü işlər görməkdən ibarətdir.

Daha sonra beynəlxalq olimpiadaların və "İstedadlı şagird üçün istedadlı müəllim" müsabiqəsinin qaliblər ilə görüş olub.

# Gövhər Baxşəliyeva: 2019-cu ilin "Nəsimi ili" elan edilməsi nəsimişünaslığın inkişafına böyük təkan verəcək



Prezident İlham Əliyev tərəfindən 2019-cu ili ölkədə "Nəsimi ili" elan etməsi çox əlamətdar və təqdirəlayiq hadisədir. İlk öncə ona görə ki, bu il bütün mütərəqqi bəşəriyyət tərəfindən dahi Azərbaycan şairi və mütəfəkkiri Seyid İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd ediləcək. UNESCO çərçivəsində də bu il Nəsimi ili elan edilir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva bildirib.

**"Bizim üçün 2019-cu ilin "Nəsimi ili" elan edilməsi xüsusi əhəmiyyət kəsb edir. Nəsimi - böyük humanist şair, insanı ilahiləşdirən, onu ucaldan bənzərsiz şeirlərin müəllifi, Azərbaycan dilinin formalaşmasında müstəsna rol oynamış şairimizdir. Yaradıcılığının ideya-mövzu və bədii-estetik cəhətləri, bütövlükdə poetikası şairi orta əsrlərin ən qüdrətli söz və fikir sərrafları ilə bir cərgəyə qoyur. Şairin azad ruhu, cəsarəti, həqiqətpərəstliyi, qorxmazlığı, orta əsrlər qaragüruhunun bütün sahələrdə tüğyan etdiyi bir dövrdə nadanlığa, cəhalətə qarşı "ənəl-həq" deyən insanın möhtəşəm üsyanı idi"**, - deyə Milli Məclisin deputatı vurğulayıb.

Gövhər Baxşəliyeva qeyd edib ki, Nəsimi yaradıcılığı istibdada qarşı, sosial ədalətsizliyə qarşı, qəddarlığa qarşı, hər növ zülmə qarşı böyük etiraz idi. Onun şeirləri insan əqlini və gözəlliyini vəsf edərək, şəxsiyyəti hər növ qadağalardan azad edərək, fanatizm və mövhumata qarşı yönəlmişdi. Bir sözlə, Nəsimi yaradıcılığının əsas ideyası - azad ruhlu, hər növ məhrumiyyətlərə qalib gələ bilən, ədalətsizliklə barışmayan yeni insanın yetişməsinə xidmət edir ki, bu da müasirliyimizlə kifayət qədər möhkəm uzlaşır.

O deyib: **"Düşünürəm ki, möhtərəm Prezidentimiz tərəfindən 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ölkəmizdə nəsimişünaslığın inkişafına böyük təkan verəcək, yeni-yeni kitab, monoqrafiya və sənət əsərlərinin yaranmasını stimullaşdıracaq.**

**Bir də ki, Nəsimi yaradıcılığının mübarizliyi, haqqı bütün varlığı ilə müdafiə etməsi, nahaqqa qarşı son damla qanınacan vuruşması böyük, möhtəşəm örnək olaraq bütün xalqımıza, ilk növbədə, gənc nəslimizə öz müsbət təsirini göstərəcək.**

**Bir də əlavə etmək istərdim ki, bu kimi qərar ölkəmizdə yüksək ideallara, mənəvi həyata, mədəniyyətə, şeirə, sənətə, onların inkişafına nə qədər böyük diqqət yetirildiyinin təzahürüdür. Bütün bunlara görə biz ziyalılar Prezident İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk".**

# Elçin Əhmədov: Prezident İlham Əliyev Ermənistanın cinayətkar rejimini və ona dəstək verənləri faktlarla ifşa etdi

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına xüsusi diqqət yetirərək bu məsələdə yalnız respublikamızın milli və dövlətçilik maraqlarını daim üstün tutduğunu nümayiş etdirib. Azərbaycan Prezidenti xarici səfərlərində, eləcə də Bakıda keçirilyi görüşlərində Ermənistanın təcavüzkar siyasətini daim önə çəkərək ərazilərimizin işğalı ilə heç zaman barışmayacağımızı, əgər danışıqlar nəticə verməsə, torpaqlarımızı hərbi yolla azad edəcəyimizi vurğulayıb. Bununla yanaşı, dövlət başçısı münaqişənin dinc vasitələrlə nizama salınmasının tərəfdarı olduğunu bildirib, beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan edib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədov Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqini şərh edərkən deyib.

E.Əhmədov qeyd edib ki, Prezident İlham Əliyev 2018-ci ilin ölkəmiz üçün uğurlu olduğunu, dünyada və bölgədə gedən mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik inkişaf etdiyini bildirdi. Xarici siyasət sahəsində də bir sıra uğurların əldə edildiyini, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayının artdığını bildirən Prezident İlham Əliyev, Ermənistan istisna olmaqla qonşu ölkələrlə əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli barədə ətraflı danışan dövlət başçısı bu məsələdə ölkəmizin mövqeyinin dəyişməz qaldığını vurğulayaraq dedi ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır.

Prezident İlham Əliyev danışıqların davam etdirilməsi prosesinin başlandığını bildirərək qeyd etdi ki, ilkin mərhələdə Ermənistanın yeni rəhbərliyi danışıqlardan boyun qaçırmaq istəyirdi və hətta belə bir fikirlər səslənirdi ki, Azərbaycan qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Azərbaycanın dərhal belə cəhdləri rədd etdiyini vurğulayan dövlət başçısı bildirdi ki, münaqişənin həlli ilə məşğul olan vasitəçilər də belə anlaşılmaz yanaşmanı heç cür dəstəkləyə bilməzdilər və onlar öz fikirlərini bildirib, nəticə etibarilə danışıqlar prosesi bərpa edilib. Prezident İlham Əliyev xarici işlər nazirlərinin artıq bir neçə dəfə görüşdüyünü bildirərək vurğuladı ki, danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır və danışıqlar prosesi üçün yalnız bu format məqbuldur.

2018-ci ildə Ermənistanda böyük dəyişikliklərin baş verdiyini, iyirmi il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş kriminal xunta rejiminin süqut etdiyini bildirən dövlət başçısı bunun da təbii olduğunu və eləcə də bunu kriminal rejimin məntiqi acı sonu kimi qiymətləndirdi. Prezident İlham Əliyev bu məsələdə Ermənistanın işğalçılıq siyasətinin də mühüm rol oynadığını diqqətə çatdıraraq bildirdi ki, məhz bu siyasətə görə Ermənistan Azərbaycan tərəfindən bütün regional layihələrdən təcrid edilib: **"Ermənistan çox dərin demoqrafik böhran içindədir və depopulyasiya, yəni, əhalinin azalması prosesi geniş vüsət alıbdır. Azərbaycan dünyaya sübut etdi ki, onun apardığı siyasət düzgün siyasətdir. Mən bu siyasəti heç vaxt gizlətməmişəm və müxtəlif kürsülərdən açıq bəyan etmişəm ki, biz Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edirik və edəcəyik. O vaxta qədər ki, torpaqlarımız azad olunsun. Bu siyasət öz nəticəsini verdi, kriminal rejim çökdü və Ermənistanda yeni vəziyyət yarandı".**

Ermənistanda iyirmi il ərzində kriminal, qaniçən xunta rejiminin hökm sürdüyünü, ancaq bəzi beynəlxalq təşkilatların buna göz yumduğunu bildirən dövlət başçısı son illərdə Ermənistanda böyük miqyasda saxtakarlıqla keçirilmiş prezident və parlament seçkilərinə beynəlxalq təşkilatlar tərəfindən müsbət rəy verildiyini təəssüflə diqqətə çatdırdı: **"Axı, son parlament seçkiləri göstərdi ki, hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş dəstə 5 faiz də səs yığa bilməyib. Bunu hər kəs etiraf edir. Ancaq əvvəlki illərdə özlərinə 50 faizdən çox səs yazdıran kriminal rejimin fəaliyyəti niyə qanuni obyektinə çevrilməmişdir?! Avropa Şurası, Avropa Parlamenti və demokratiyadan, ədalətdən dəm vuran digər beynəlxalq təşkilatlar o biabırçı mənzərəyə niyə göz yumurdular?! Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər saxtalaşdırılıb? Bilmirdilər ki, erməni xalqı kriminal rejimə nifrət edir? Çox yaxşı bilirdilər, amma göz yumurdular. Nəyə görə? İkili standartlara görə. Nəyə görə? Çox güman ki, burada hansısa təməna ilə bağlı başqa məsələlər olub. Heç kimə sirr deyil ki, Ermənistan beynəlxalq arenada konyak diplomatiyasını işə salıb və bir çox siyasətçiləri satın alıb. Əvvəlki illərdə Ermənistanın xarici siyasətində rüşvət amili birinci yerdə idi".**

Bu məsələnin müvafiq beynəlxalq orqanlar tərəfindən çox ciddi araşdırılmalı olduğunu qeyd edən Prezident İlham Əliyev bildirdi ki, kriminal rejimə iyirmi il ərzində dəstək verən, onun cinayətlərinə göz yuman, onun əlindən orden, medal alan dırnaqarası siyasətçilər məsuliyyətə cəlb olunmalıdırlar: **"Bizim tələbimiz bundan ibarətdir. Əgər bu, olmasa, demək heç nə dəyişilmir. Əgər bu, olmasa, onda bu gün bəzi beynəlxalq təşkilatlar tərəfindən səslənən ədalət, insan haqları haqqında cəfəng bəyanatlar elə cəfəng bəyanatlar kimi qalacaq. Sarkisyan rejiminə, onun əməllərinə dəstək verən, göz yuman beynəlxalq təşkilatlar əgər öz günahını yumaq istəyirlərsə, qoy, etiraf etsinlər ki, onlar iyirmi il ərzində cinayətkar-**



**larla əlbir olublar və bələliklə, bu cinayətlərdə onların da əli, onların da payı var".**

Dövlət başçısı bir daha diqqətə çatdırdı ki, müstəqilliyi cəmi 27 il bərabər olan bir ölkəni əgər 20 il ərzində cinayətkarlar idarə ediblərsə, onda bu ölkə haqqında təsəvvür yaratmaq o qədər də çətin deyil. Ermənistanın bu ağır böhranlı vəziyyətdən çıxarmaq üçün bir yolun olduğunu bildirən dövlət başçısı bəyan etdi ki, Azərbaycan ilə münasibətləri normallaşdırmaq üçün bir şərt var - Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır.

Eyni zamanda, Prezident İlham Əliyev keçən il hərbi potensialımıza böyük diqqət göstərdiyimizi və bu sahədə böyük nailiyyətlər əldə etdiyimizi bildirərək qeyd etdi ki, bizim ordumuzun döyüş qabiliyyəti artıb, uğurlu Naxçıvan əməliyyatı bunu əyani şəkildə sübut edib və bu əməliyyat nəticəsində 11 min hektar torpağa ordumuz nəzarət edir: **"Eyni zamanda, əldə edilmiş yüksəkliklər strateji xarakter daşıyır. Bu yüksəkliklər Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmək üçün bizə imkan yaradır. Yəni, bu hadisə - Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü istənilən yolla bərpa edəcək. Sadəcə, danışıqlara ümid olduğu üçün biz danışıqlar yolunu hələ ki, əsas vasitə kimi görürük. Ancaq, eyni zamanda, hərbi gücümüzü də artırırıq. Döyüş qabiliyyətimizlə bağlı keçən il aparılan işlər əlbəttə ki, çox yüksək qiymətə layiqdir".**

Münaqişənin nizama salınmasında Azərbaycanın tutduğu mövqe birmənalıdır. Problem yalnız Azərbaycanın ərazi bütövlüyü və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini tapmalıdır. Bu mövqe beynəlxalq hüquq normaları və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır. Eyni zamanda, münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüquq prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir. Bu baxımdan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, ATƏT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının qərarları da əhəmiyyətlidir və ölkəmizin ədalətli mövqeyinin beynəlxalq səviyyədə müdafiəsi üçün hüquqi əsasdır.

# 20 Yanvar faciəsi tariximizin şərəf və qəhrəmanlıq salnaməsidir

*Rüstəm Əliyev adına 3 nömrəli tam orta məktəbdə 20 Yanvar şəhidlərinin xatirəsi anılıb*



Vətənpərvərliyin ən ali məqamı - şəhidlikdir. Bu ucalığa yüksələnlərin ömür yolu şərəfli və örnək sayılır. Müxtəlif məqamlarda bizi düşündürən, narahat edən, ağladan, sevindirən, mənəviyyatımıza yeni çalarlar qatan, bəzən də bizi sərtləşdirən hadisələrlə rastlaşırıq. Bu, bizim həyat yolumuzun, ömrümüzün mənasını, mahiyyətini təşkil edir. Sözsüz ki, bu hadisələr içərisində bizi daha çox düşündürən, mübariz edən dərdlərimiz, acı kədərimiz, bir də qəhrəmanlıqlarımızdır.





AZƏRTAC xəbər verir ki, bu fikirlər yanvarın 14-də Binəqədi rayonu Rüstəm Əliyev adına 3 nömrəli tam orta məktəbdə 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunan tədbirdə səsləndirilib.

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş qəhrəman övladlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Məktəblilər faciə ilə bağlı ədəbi-bədii kompozisiya təqdim ediblər.

Tədbirdə məktəbin direktoru, riyaziyyat üzrə fəlsəfə doktoru Natəvan Əsədova çıxış edərək bildirib ki, sovet imperiyasının 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törətdiyi vəhşiliklər və qətllər insanlığa qarşı yönəlmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaq. O gecə Azərbaycan xalqına qarşı törədilən cinayət, tökülən qanlar xalqımızın müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi, insanları daha sıx birləşdirdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız öz müqəddəs arzusuna - milli azadlığına qovuşa bildi, Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu. **"Torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına şəhid olanlar arasında bizim məktəbin məzunları da var. Məktəbimizin adını daşıyan Rüstəm Əliyevin, ömrünün 20-ci baharında Murovdağın zirvəsində şəhidlik məqamına yüksələn Elgün İsmayılovun və başqalarının adını çəkə bilərəm. Onların keçdiyi şərəfli yol hər birimiz üçün örnəkdir. Hər bir Azərbaycan vətəndaşı öz qəhrəmanlarını tanımalı, onların keçdiyi həyat yolundan çox şeyləri öyrənməlidir. Torpaqlarımızın qorunması, vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur"**, - deyə məktəbin direktoru bildirib.

Tədbirdə 20 Yanvar İctimai Birliyinin sədr müavini Mustafa Qaramanlı, "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin sədri İlham Qayıbzadə, Binəqədi Rayon İcra Hakimiyyətinin nümayəndəsi Şəmsi Gülverdiyev və başqaları çıxış edərək ölkəmizdə Qarabağ müharibəsi veteranlarının, əlillərin və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlərdən danışıblar. Bildirilib ki, Ulu öndər Heydər Əliyev Qarabağ müharibəsi veteranlarına, əlillərə və şəhid ailələrinə həmişə diqqət və qayğı ilə yanaşıb, onların problemlərinin həllinə çalışıb. Ümummilli liderin bu siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu qəbildən olan insanların həyat şəraitinin, güzəranının yaxşılaşdırılması üçün konkret tədbirlər görülür.

Şəhid Elgün İsmayılovun atası, Əməkdar jurnalist Dağbəyi İsmayılov Vətən uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş tədbirin təşkilatçılarına təşəkkürünü bildirib. **"Övladım Elgün İsmayılovun bu məktəbdə, sinif otaqlarında, tədbirlərdə iştirakını xatırlamaq mənim üçün qürurvericidir. Övlad, oğul Vətən üçün böyüyür. Bir ailədə dünyaya gəlir, ancaq Vətənin tərəqqisi, müstəqilliyi üçün çalışır. Mən də başımı dik, uca tutaraq oğlumun Vətən yolunda, düşmənlə mübarizədə şəhid olmasından qürur duyuram. Bu gün gözəl bir kompozisiya təşkil etmisiniz. Kompozisiyada Azərbaycan xalqının keçdiyi qəhrəmanlıq yolunda 20 Yanvar faciəsinin fəlsəfəsi, mahiyyəti açılır. Bu kompozisiyanın sonunda mən gələcək əsgərlərimizi - Rüstəmləri, Elgünləri, Milli qəhrəmanlarımızı gördüm. Ölkəmizin bütün məktəblərində bu cür qəhrəmanlar yetişir. Gənclərimizə, balalarımıza Vətən təəssübkeşliyi, vətənin bilikli, savadlı övladları olmağı arzulayıram"**, - deyə şəhid atası qeyd edib.

Məktəbdə silsilə tədbirlər çərçivəsində Qara Yanvar şəhidlərinin xatirəsinə həsr olunan "20 Yanvar faciəsi tariximizin şərəf və qəhrəmanlıq salnaməsidir" adlı guşə yaradılıb, şagirdlərin rəsm əsərlərindən ibarət sərgi açılıb.

# Vüqar Rəhimzadə: Azərbaycan beynəlxalq aləmdə humanist addımların, qlobal iqtisadi layihələrin müəllifi kimi tanınır



**"Regionun, ümumilikdə, dünyanın inkişaf dinamikasına müsbət təsir edən, mühüm töhfələr verən Azərbaycan beynəlxalq aləmdə humanist addımların, qlobal iqtisadi layihələrin müəllifi kimi tanınır. Bu layihələr sülh və təhlükəsizliyə xidmət etməklə yanaşı, region ölkələrinin iqtisadi baxımdan inkişafında əvəzedilməz amil kimi çıxış edir. Qardaş Türkiyə, Gürcüstan, İran və digər dövlətlərlə mövcud iki və çoxtərəfli əməkdaşlıqlar gələcəkdə böyük perspektivlər vəd edir. Təbii ki, işğalçı Ermənistan isə bütün bu layihələrdən kənarda qalmaqla, çöküş dövrünü yaşayır. Bu gün işğalçı ölkədə siyasi gərginlik mövcuddur, iqtisadiyyat iflas həddindədir, əhali xaricə axın etməkdə davam edir. Qeyd etdiyimiz kimi, səbəb isə birdir: işğalçılıq siyasəti, Azərbaycan və digər ölkələrə qarşı əsassız ərazi iddiaları, terrorçu siyasi rejim. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı dövlətimizin başçısı xüsusi olaraq bu məsələyə toxunub və iyirmi il hakimiyyəti qanunsuz zəbt etmiş kriminal xunta rejiminin süqutundan danışıb. Dövlətimizin başçısı bəyan edib ki, bu, kriminal rejimin məntiqi acı sonudur".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, 20 il ərzində Ermənistandakı kriminal rejimin işğalçılıq siyasətinə biganə qalan beynəlxalq təşkilatlar yenə də ikili standartlardan əl çəkmək istəmir, baş verənlərə obyektiv qiymət verməkdən boyun qaçırırlar: **"Prezident İlham Əliyev nitqində haqlı olaraq vurğulayıb ki, bəzi beynəlxalq təşkilatlar Ermənistanda böyük miqyasda saxtakarlıqla keçirilmiş prezident və parlament seçkilərinə müsbət rəy verirlər. Son parlament seçkilərində gördük ki, hakimiyyəti qanunsuz zəbt edən kriminal rejim heç beş faiz də səs toplaya bilmədi. "Avropa Şurası, Avropa Parlamenti və demokratiyadan, ədalətdən dəm vuran digər beynəlxalq təşkilatlar o biabırçı mənzərəyə niyə göz yumurdular?! Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər saxtalaşdırılıb? Bilmirdilər ki, erməni xalqı kriminal rejimə nifrət edir?", - deyən dövlətimizin başçısı bəzi beynəlxalq təşkilatları fakt qarşısında qoyub. Hesab edirəm ki, Prezident İlham Əliyevin "Ermənistan beynəlxalq arenada "konyak diplomatiyası"nı işə salıb və bir çox siyasətçiləri satın alıb" fikri bəzi beynəlxalq təşkilatlar üçün dərs olmalı, hadisələrə bundan sonrakı yanaşmalarında əsaslı dönüş yaratmalıdır".**

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, demokratiyadan, insan haqlarından danışan bəzi beynəlxalq təşkilatlar Ermənistanda baş verən hadisələrə göz yummamalıdır: **"Söhbət demokratiyadan gedirsə, bu amil Ermənistan üçün də keçərli olmalıdır. Başqa ölkələrə "insan haqları" adı altında təzyiq göstərən bəzi beynəlxalq təşkilatlar Ermənistan adı gələndə niyə susurlar? Bu susqunluq nə vaxta kimi davam edəcək? Əgər işğalçı ölkədə 20 ildə baş verən qanunsuzluqlar öz ədalətli qiymətini almayacaqsa, bəzi beynəlxalq təşkilatların demokratiya, insan haqları ilə bağlı bəyanatları boş və mənasız söz yığını olaraq qalacaq".**

# Səfir Dursun Həsənov: Azərbaycan hər zaman dost Gürcüstana yardım edib



Yanvarın 14-də Gürcüstanda Dövlət Bayrağı Günü qeyd olunub. Bu münasibətlə paytaxt Tbilisidə və ölkənin regionlarında silsilə tədbirlər keçirilib.

AZƏRTAC xəbər verir ki, Laqodexi rayonunda keçirilən tədbirdə Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, səfirliyin və ölkəmizin Batumidəki baş konsulluğunun əməkdaşları, ictimaiyyətin nümayəndələri, o cümlədən gürcü və azərbaycanlı gənclər iştirak ediblər.

Laqodexi şəhərinin meri Condo Diriaşvili tədbirdə çıxış edərək bayraq gününün əhəmiyyətindən və xalqının müstəqillik mübarizəsindən danışıb.

Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov dost və qardaş gürcü xalqını bayram münasibətilə təbrik edib. Xalqlarımızın oxşar talelərindən, müstəqillik mübarizəsinin bənzərliyindən söz açan diplomat bildirib ki, Azərbaycan və Gürcüstan Dövlət Bayraq Gününü təntənə ilə qeyd edirlər. Bayraq hər bir millətin qürur mənbəyidir.

Azərbaycan-Gürcüstan dostluğunun əhəmiyyətini vurğulayan səfir deyib ki, rəsmi Bakı münasibətlərimizin hərtərəfli inkişafında maraqlıdır. Azərbaycan hər zaman dost gürcü xalqının yanında olub və bundan sonra da olacaq.

Laqodexi bələdiyyəsinin sədri Kaxa Camburiya qardaş Azərbaycanın köməyini daim hiss etdiklərini bildirib, göstərilən diqqətə, dəstəyə və yardıma görə minnətdarlığını ifadə edib.

Digər çıxış edənlər də Azərbaycan-Gürcüstan dostluğundan, ölkələrimiz arasındakı əlaqələrin inkişaf perspektivlərindən danışıblar.

Sonra Gürcüstanın dövlət himni səsləndirilib və dövlət bayrağı qaldırılıb.

# Anti-azərbaycançı qüvvələrin Mehman Hüseynov "kampaniya"sına növbəti zərbə...

*Mehman Hüseynovla görüşən beynəlxalq diplomatik qurumların nümayəndələri onun aclıq aksiyası keçirmədiyinin, səhhətinin normal olduğunun və qohumları ilə görüşdüyünün bir daha şahidi olublar*



Anti-azərbaycançı mərkəzlərin "Mehman Hüseynov şousu" bu dəfə də baş tutmadı. Artıq bir neçə gündür ki, adıçəkilən xarici mərkəzlərin apardıqları çirkin kampaniyanın məqsədi bütün detalları ilə ortaya çıxıb. Belə ki, istər həmin antimilli ünsürlərin apardıqları yalan təbliğat, istərsə də sosial şəbəkələrdə ortaya qoymağa çalışdıqları iddialar fiaskoya uğrayıb.

Xatırladaq ki, 2017-ci ilin martında həbs olunan Mehman Hüseynovun ötən il dekabrın 26-da 14 saylı cəzaçəkmə müəssisəsində plan üzrə aparılan növbəti ümumi axtarış-baxış tədbirləri zamanı Rejim-nəzarət şöbəsinin böyük inspektoru, ədliyyə leytenantı Abdalov Əli Ələddin oğlunun qanuni tələblərinə tabe olmayaraq ona qarşı zor tətbiq etməsi ilə bağlı hüquqi prosedur başladılıb. Belə ki, Ə.Abdalova fiziki müqavimət göstərərək ona bədən xəsarəti yetirən, xidməti otaqda olan əşyaları dağıdaraq sındıran M.Hüseynovla bağlı Bakı şəhəri Qaradağ Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 315.2-ci maddəsi (hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə müqavimət göstərmə) ilə cinayət işi açılıb.

Bundan sonra isə ermənipərəst mərkəzlərin, antimilli ünsürlərin "səyi" ilə guya həbsdə olan Mehman Hüseynovun "aclıq aksiyası" keçirməsi, o cümlədən səhhətində problemlərin yaranması haqqında yalanlar dövriyyəyə buraxılmağa başlanıldı. Hətta məsələ elə təqdim edilirdi ki, guya M.Hüseynov quru aclıq keçirir, səhhəti kritik durumdadır. Ədliyyə Nazirliyinin Penitensiar Xidməti isə bununla bağlı rəsmi məlumat yayaraq Mehman Hüseynovun aclıq aksiyası keçirmədiyini və səhhətinin qaydasında olduğunu bildirdi. Onun qidalandığı, vəkili ilə görüşdüyü, ailə üzvləri ilə telefonla danışdığı rəsmi məlumatda təsdiqini tapdı.

Bununla belə, yaranan "fürsət"i dəyərləndirməyə çalışan bir qrup antimilli ünsür məsələ ətrafında şou yaratmağa, ölkəmizə qarşı çirkin kampaniyalar aparmağa start verdilər. Hətta tez-tələsik ölkə xaricindəki antimilli mərkəzlər vasitəsilə ermənipərəst şəxslərdən "açıqlamalar" alınır, onların bu məsələdəki "mövqeləri" əks etdirilir, bir sıra "beynəlxalq hüquq müdafiəçiləri"nin məsələyə "müdaxilə"si təşkil edilirdi. Ölkə daxilində isə hər zaman olduğu kimi ermənipərəst mərkəzlərin maliyyəsi ilə "çalışan" radikal müxalif ünsürlər "prosesi dəstəkləməyə" həvəsləndirilmişdilər. Vurğulayaq ki, bu məsələdə xüsusi canfəşanlıq göstərənlərin - AXCP sədri Əli Kərimli, qondarma "Milli şura" rəhbəri Cəmil Həsənli, ermənipərəst Əkrəm Əylisli, onun yandaşı sayılan Rüstəm İbrahimbəyov və digərlərinin siyasi kimliyi onların əsl məqsədlərindən xəbər verirdi. Eləcə də M.Hüseynovun qardaşı, hər zaman ermənilərin əsas "istinad mənbələrindən" sayılan Emin Hüseynov "qardaşını müdafiə" adı altında ölkəmizə qarşı hansısa sanksiyaların tətbiqini belə tələb edirdi.

Amma ermənipərəst qruplaşmanın "arzu"ları bu dəfə də puç oldu. Belə ki, M.Hüseynovu yerli hüquq müdafiəçiləri ziyarət etdilər. Onun heç bir aclıq aksiyası keçirmədiyi, normal qidalandığı, qohumları ilə görüşdüyü, səhhətinin normal olması rəsmi şəkildə öz təsdiqini tapdı. Bundan başqa, baş verənlərlə bağlı KİV-lərə müraciət edən M.Hüseynov qeyd edib ki, onun vəziyyətinin kritik hala düşməsi ilə bağlı yayılan xəbərlər doğru deyil. O, səhhətinin yerində olduğunu və qida qəbul etdiyini bildirib.

Yeri gəlmişkən, əldə olunan məlumatlara görə, yanvarın 11-də Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin müraciəti əsasında bir sıra Avropa İttifaqı ölkələrinin səfirliklərinin məsul diplomatlarının da təcridxanada Mehman Hüseynovla görüşü təşkil olunub. Görüşdə Aİ-nin Bakı nümayəndəliyinin rəhbərinin müavini, Fransa, Hollandiya, Böyük Britaniya, Çex Respublikası və Almaniya səfirliklərinin əməkdaşları iştirak ediblər. Onlar yerində Mehman Hüseynovun saxlanma şəraiti ilə tanış olub və səhhəti ilə maraqlanıblar. Bir daha şahidi olublar ki, Mehman Hüseynovun səhhəti normaldır, saxlanma şəraiti ilə bağlı hər hansı şikayəti yoxdur, vəkili və atası ilə sərbəst görüşə bilir.

Beləliklə, bu fakt anti-azərbaycançı qüvvələrin, radikal ünsürlərin günlərdir ki, apardıqları çirkin yalan kampaniyasının növbəti fiaskosuna çevrildi. Belə demək mümkündürsə, Mehman Hüseynov şousu yaratmağa çalışan və yalan təbliğata "güc verənlərə" növbəti zərbə vuruldu.

**Pərviz SADAYOĞLU**

# Ermənistan yeni bahalaşma dalğası ilə üz-üzə...

*Ekspertlərin fikrincə, 2019-cu ildə işğalçı ölkədə əhalini və hökuməti çox çətin günlər gözləyir*



Ermənistanda yeni parlamentin öz işinə başlaması və Nikol Paşinyanın baş nazir təyin edilməsi ilə işğalçı dövlətdəki qeyri-müəyyənliyin aradan qalxmasını gözləmək sadəlövhlük olardı. Çünki spiker seçilən Ararat Mirzəyan başda olmaqla formalaşan yeni parlamentdəki şəxslərin əksəriyyəti son 8 ayda Ermənistanda icraedici hakimiyyətdə təmsil olunanlardır. Ac-yalavac ermənilər isə bu müddət ərzində onların fəaliyyətindən müsbət mənada heç nə qazanmayıblar.

Paşinyanın arxasına düşüb küçələrdə etiraz aksiyası keçirən sadə Ermənistan vətəndaşları artıq onun və komandasının nəyə qadir olduğunu gördükləri üçün yeni parlamentdən və N.Paşinyanın quracağı yeni hökumətdən heç nə gözləmirlər. Məhz buna görə də yeni ilin ilk iki həftəsində havaların həddindən artıq soyuq keçməsinə baxmayaraq, Yerevanın özündə və regionlarda sosial-iqtisadi çətinlikdən bezmiş, işsiz qalmış, gələcəyə ümidini itirmiş, çörək pulu tapmayan vətəndaşların etiraz aksiyaları geniş vüsət alıb. Kütləvi etiraz aksiyaları ilə yanaşı, Ermənistanda kriminal durum daha da gərginləşib.

Ekspertlərin rəyinə görə, 2019-cu ildə əhalini və hökuməti çox çətin günlər gözləyir. Çünki Rusiyadan alınan təbii qazın qiymətindəki artım təkcə "mavi yanacağ"ın deyil, digər enerjidaşıyıcılarının, habelə ən mühüm tələbat məhsullarının qiymətinin artmasına da gətirib çıxarır. Artıq hökumətin enerjidaşıyıcıların tariflərinə yenidən baxacağı barədə xəbərlər yayılıb. "168 jam" qəzeti yazır ki, bahalaşma ciddi dərəcədə nəzərə çarpır, məsələn, unun qiyməti təxminən 10 faiz artıb, nəticədə əhalinin əsas yeyinti tələbat məhsulu olan çörək artıq mağazalarda 100 dram əvəzinə 120 drama satılır. Bu artım əhalinin əksəriyyətini təşkil edən yoxsul təbəqənin aclıqla üzləşməsinə gətirib çıxara bilər.

Qəzet yazır ki, 2019-cu ildə qiymət artımının ən azı 3 dalğası gözlənilir. Hazırda baş verən qiymət artımının ilk dalğası Ermənistanın Avrasiya İqtisadi İttifaqının vahid gömrük sisteminə inteqrasiyası prosesi ilə bağlıdır. 2019-cu ildən etibarən üçüncü ölkələrdən gətirilən bir sıra malların gömrük rüsumlarının artdığı nəzərə alınsa, yaxın günlərdə bunun bazar qiymətlərinə də təsir göstərəcəyi qeyd edilir. Belə ki, ilkin tələbat malları hesab edilən ərzaq (taxıl məhsulları, yağlar), ət, kənd təsərrüfatı məhsulları, o cümlədən bəzi tərəvəz növlərinin qiymətləri kəskin artacaq. Qeyd edək ki, bu məhsulların qiymətinin artması yerli kənd təsərrüfatı məhsullarının qiymətinin də qalxmasına səbəb olacaq. Bahalaşacaq məhsulların siyahısı bununla bitmir, yuxarıda göstərilən məhsulların qiymətlərinin artması nəticəsində bir-biri əlaqəli olan malların da qiymətləri artacaq və ölkə iqtisadiyyatının bütün sahələrində qiymətlərin daha da artmasına gətirib çıxaracaq.

Hökuməti çətin günlərin gözlədiyini qeyd edən politoloq Hrant Məlik-Şahnəzəryan da "tert.am" saytına verdiyi açıqlamada baş nazir N.Paşinyanın qarşısında duran bir çox problemi həll edə bilməyəcəyini bildirib. Ermənistanın əsas problemlərinin qaynağı olan xarici əlaqələrin də bərbad durumda olduğunu bildirən H.Məlik-Şahnəzəryan mövcud hökumətin xarici siyasətinin perspektivini mənfi qiymətləndirib: **"Ermənistan son aylarda təcrid olunmuş vəziyyətdədir. Baş verən dəyişiklik nəticəsində strateji tərəfdaşlarla və müttəfiqlərimizlə əlaqələrimiz pozulub, əslində, Aİ ilə münasibətlərdə ciddi irəliləyiş yoxdur, əksinə, görünən odur ki, Avropa ölkələrinin parlamentləri müqavilənin ratifikasiyasını dayandırıb. Çünki Ermənistan öz öhdəliklərini yerinə yetirmir, Ermənistan-ABŞ münasibətləri isə mövcud deyil".** Ekspertin sözlərinə görə, artıq bütün şanslar əldən verilib, xarici siyasətdə də qeyri-müəyyənlik hökm sürür.

Göründüyü kimi, ermənilərin özləri də etiraf edir ki, xarici aləmdən təcrid olunmuş vəziyyətdə olan Ermənistanda N.Paşinyanın səriştəsiz fəaliyyəti nəticəsində cəmiyyətdə narazılıq pik həddədir.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın regionlarında meyvəçiliyin inkişafına xüsusi diqqət yetirilir

*Bunun nəticəsidir ki, yerli fermerlər meyvə bağlarından bol məhsul toplayırlar*



Bu gün öz inkişafına görə regionun lider dövləti olan Azərbaycanda həyata keçirilən siyasət istər regional layihələrin, istərsə də müvafiq Dövlət proqramlarının uğurla icrasına imkan yaradır. Bu isə spesifik milli inkişaf modelinə malik olan ölkəmizin tərəqqisinin konseptual əsaslara söykəndiyini bir daha təsdiqləyir. Ümumiyyətlə, son 15 ildə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində bölgələrdə böyük layihələr reallaşdırılıb. Regionların sosial-iqtisadi inkişafından söz açarkən, onu da qeyd etmək yerinə düşər ki, bu prosesdə dövlətlə yanaşı, özəl sektor da yaxından iştirak edir. Bu baxımdan, ötən müddət ərzində ölkəmizdə sahibkarlara göstərilən dövlət dəstəyi, öz növbəsində, regionların inkişafında da mühüm rol oynayıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu inkişaf siyasəti bütün sahələrdə müsbət göstəricilərin qeydə alınmasını şərtləndirib. İnkişaf göstəriciləri Azərbaycanın bölgələrini də əhatə edir, regionların tərəqqisi ardıcıl səciyyə daşıyır. Qeyd etdiyimiz kimi, regionlarin sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində bölgələrin siması əsaslı dərəcədə dəyişilib, bütün sahələrdə mühüm inkişaf göstəriciləri əldə olunub. Eyni zamanda, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində müxtəlif istiqamətlərdə qarşıya qoyulan vəzifələr müvəffəqiyyətlə icra edilir. Onu da vurğulamaq lazımdır ki, bölgələrdə aqrar sektorun inkişafı istiqamətində də ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, müsbət nəticələr əldə olunur. Aqrar sektorun inkişafı, eyni zamanda, bölgələrdə iqtisadi aktivliyin artmasına və fəal məşğul əhalinin əmək bazarına çıxış imkanlarının genişlənməsinə müsbət təsir göstərir ki, bu da dərin sosial əhəmiyyətə malikdir.

Aqrar sektorun inkişafı ilə bağlı müəyyənləşdirilən bu kimi hədəflərə çatmaq üçün məqsədyönlü tədbirlər həyata keçirilir. O cümlədən iri təsərrüfatların, aqroparkların yaradılması dövlət tərəfindən dəstəklənərək güclü şəkildə təşviq edilir, gəlir imkanları və əmək tutumu yüksək olan istiqamətlərin inkişafı diqqət mərkəzində saxlanılır, fermerlərə subsidiyalar ayrılır, təsərrüfatların texnika, gübrə ilə təminatı gücləndirilir, hazır məhsulun alış qiyməti davamlı şəkildə artırılır. Yerli sahibkarlar, fermerlər bu sahənin inkişafında da dövlətin dəstəyindən bəhrələnərək fəal iştirak edirlər. Bu kontekstdə meyvəçiliyin inkişafına xidmət edən səmərəli tədbirləri də ayrıca vurğulamaq gərəkdir.

Son illər respublikamızda kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər, fermerlərə göstərilən diqqət və qayğı bu sektorda çalışan insanlar üçün geniş imkanlar açır. Dövlət tərəfindən verilən dəstək sayəsində kənd təsərrüfatı ilə məşğul olan fermerlər öz əkin sahələrini genişləndirməyə, aqrar sektorda böyük çəkiyə malik olan bu sahənin inkişaf etməsi üçün öz töhfələrini verməyə çalışırlar.

2018-ci ildə Yevlax rayonunun Kürqırağı ərazilərində 100 hektar yeni meşə və meyvə bağı salınıb. Bərdə Regional Meşə Təsərrüfatı Mərkəzindən bildiriblər ki, Varvara, Qaraoğlan və Cırdaxan meşəbəyliklərində 22 hektarda salınan meşələrə əsasən 48 min 900 ədəd tut, göyrüş, sərv, palıd, şam, tuya, 78 hektar meyvə bağında isə 39 min ədəd ərik, nar, qoz və tut ağacları əkilib. Kökləndirmək üçün 3 hektarda 116 min ədəd nar qələmi basdırılıb, 1,5 hektarda (54 min ədəd) tuya, şam, sərv ağaclarından ibarət böyütmə sahəsi yaradılıb. Baramaçılığın inkişafı məqsədilə rayon ərazisində əkilməsi üçün 20 min ədəd tut tingi ayrılıb. Ting yetişdirilməsi üçün 4 hektarda tut, ərik, alma, meliya, göyrüş, ağcaqayın toxumları səpilib. 121 kiloqram toxum tədarük olunub. Yeni meşələrin və meyvə bağlarının salınması 2019-cu ildə də davam etdiriləcək.

Bərdə rayonunda isə 153 hektar sahədə yeni meşə və meyvə bağları salınıb. 15 hektarda salınan meşələrdə 39 min ədəd şam, göyrüş, sərv, palıd, tuya ağacları, 138 hektar meyvə bağında isə 69 min ədəd ərik, nar və tut ağacları əkilib. Kökləndirmək üçün 5 hektar sahədə 271 min ədəd nar qələmi basdırılıb, 1 hektarda (33 min ədəd) tuya, şam, sərv ağaclarından ibarət böyütmə sahəsi yaradılıb. Baramaçılığın inkişafı məqsədilə rayon ərazisində əkilmək üçün 110 min ədəd tut tingi verilib. Ting yetişdirilməsi üçün 1,5 hektarda tut, ərik, göyrüş, akasiya toxumları səpilib, 2300 kiloqram toxum tədarük edilib.

Şamaxı rayonunda da ötən il 83,3 hektarda yeni üzüm plantasiyaları salınıb və beləliklə, bağların sahəsi 1793,3 hektara çatıb. Rayon statistika idarəsindən bildirilib ki, yeni bağlar əsasən “Az-Granata” MMC və “Mədrəsə Aqro” MMC tərəfindən salınıb. Qeyd edək ki, son illər bölgədə üzümçülüyün inkişafı istiqamətində ardıcıl tədbirlər görülür və Şamaxı bu sahədə sovetlər birliyi dövründəki şöhrətini qaytarmaq əzmindədir. Hazırda plantasiyaların 1612 hektarı məhsuldardır. Ötən il 9972 ton üzüm istehsal olunub ki, bu göstərici əvvəlki ildəkindən 1572,5 ton çoxdur.

Bütün bunlarla yanaşı, 2018-ci ildə Ağcabədi və Beyləqan rayonları ərazilərində 287 hektar yeni meşə və meyvə bağları salınıb. Ağcabədi Regional Meşə Təsərrüfatı Mərkəzindən bildiriblər ki, 17,5 hektarda salınan meşələrə 57 min 750 ədəd göyrüş, qarağac, şam, sərv ağacı, 269,5 hektar meyvə bağında isə 134 min 750 ədəd ərik, nar, tut, xurma ağacı əkilib. Kökləndirmək üçün 9,95 hektar sahədə 575 min ədəd nar, zeytun, söyüd və qovaq qələmi basdırılıb, 3 hektarda (120 min ədəd) tuya, şam, sərv, tut ağaclarından ibarət böyütmə sahəsi yaradılıb. Baramaçılığın inkişafı məqsədilə müxtəlif rayonların ərazisində əkilmək üçün 90 min ədəd tut tingi verilib. Ting yetişdirilməsi üçün 4,1 hektarda tut, ərik, şaftalı, alça, xurma, gavalı, iydə toxumları səpilib. Yeni meşələrin və meyvə bağlarının salınması 2019-cu ildə də davam etdiriləcək.

Hacıqabul rayonunda da təsərrüfatın digər sahələri ilə yanaşı, bağçılığın inkişafına xüsusi diqqət yetirilir. Bunun sayəsində də rayonda hər il yeni-yeni bağçılıq təsərrüfatları yaradılır, meyvə istehsalı artır. Təsərrüfatın bu sahəsi ilə məşğul olan fermerlər hər il meyvə bağlarından yüz tonlarla məhsul istehsal edərək bazarlara çıxarır və emal müəssisələrinə göndərirlər. Rayon Statistika İdarəsindən bildiriblər ki, hazırda rayonda həyətyanı sahələrlə birlikdə 1439,6 hektar meyvə bağı var. Ötən il bu bağlardan 11 min 995 ton məhsul tədarük olunub ki, bu da 2017-ci ildəkindən 881 ton çoxdur. Tədarük olunan meyvənin 272 tonunu alma, 212 tonunu armud, 330 tonunu alça, 406 tonunu heyva, 640 tonunu ərik, 158 tonunu şaftalı, 179 tonunu gavalı, qalanını isə digər meyvələr təşkil edib. Bağbanlar ən yüksək nəticəni nar bağlarından əldə ediblər. Rayonda mövcud olan 1137 hektar nar bağından 9 min 41 ton məhsul tədarük olunub. Tədarük olunan narın, demək olar ki, yarıdan çoxu Udlu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin ərazisindəki bağlardan yığılıb. Bağbanlar yetişdirdikləri narı yerli bazarlarla yanaşı, xarici bazarlara da göndəriblər.

Kürdəmirdə isə ötən il 3975 hektar meyvə bağından 33 min 774 ton məhsul yığılıb. Bu göstərici inişilki illə müqayisədə 6948 ton çoxdur. Rayon İcra Hakimiyyətindən verilən məlumata görə, tədarük olunan meyvənin 1678 tonu heyva, 525 tonu alça, 383 tonu gavalı, 334 tonu xurma, 277 tonu armud, 173 tonu ərik, 168 tonu şaftalı, 124 tonu alma və digər məhsullardır. Bağbanlar ən yüksək nəticəni nar bağlarından əldə ediblər. Belə ki, 3422 hektar nar bağından 29 min 777 ton məhsul tədarük olunub. Tədarük edilən narın, demək olar ki, yarıdan çoxu Karrar, Sığırlı, Ərəbqubalı və Axtaçı kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklərin ərazilərindəki bağlardan yığılıb. Bağbanlar yetişdirdikləri meyvələri, xüsusən də narı yerli bazarlarla yanaşı, xarici bazarlara da çıxarırlar.

Tərtər rayonunda da əhalinin əsas məşğuliyyət növlərindən biri bağçılıq və tingçilikdir. Son illərdə kənd təsərrüfatının digər sahələri kimi, bu istiqamətdə də inkişafa nail olunub. Rayon Statistika İdarəsindən bildiriblər ki, Tərtərdə 1397,8 hektar meyvə bağları və 11,6 hektar üzümlüklər var. Meyvə bağlarının 1118,8 hektarı barverəndir. 2018-ci ildə 100,9 hektarda yeni meyvə bağları və giləmeyvəliklər, o cümlədən 32,8 hektarda xurma, 24,3 hektarda şaftalı, 9,9 hektarda armud, 8,2 hektarda gilas, 6,9 hektarda alça, 6,4 hektarda alma, 6,2 hektarda badam və s. bağlar salınıb. 1 milyon 692 min 685 ədəd meyvə və 224 min ədəd dekorativ bitki tingləri yetişdirilib. Ötən il rayon ərazisindəki bağlardan 10 min 363,7 ton meyvə və giləmeyvə, 1045 ton üzüm yığılıb.

Ölkəmizin hər yerində olduğu kimi, Qazaxda da kənd təsərrüfatının inkişaf etdirilməsi üçün məqsədyönlü işlər görülür. Son iki il yarımda rayonda əkin sahələri ildən-ilə genişləndirilir. Ötən ildən başlayaraq Qazaxda ilk dəfə olaraq yeni üsulla çiyələk yetişdirilir. Təsərrüfat rəhbəri Nüsrət Aşırov ilk dəfədir çiyələk becərdiyini deyib. Söhbət zamanı o, bu gün istehlakçıların ən çox maraq göstərdiyi çiyələyin dünya bazarında xüsusi yeri olduğunu qeyd edib. O, keçən ilin avqust ayında Çaylı kəndi ərasizində 4 hektar sahədə yüksək məhsuldarlığa malik, süfrəlik və mürəbbəlik “Albion” sortu olan çiyələk şitilləri əkib. Bir hektara təxminən 46-50 min şitil əkdiyini deyən fermer yüksək məhsuldarlıq əldə etmək üçün bütün aqrotexniki qaydalara əməl olunduğunu və şitillərə xüsusi qulluq göstərildiyini vurğulayıb.

Çiyələyin becərmə texnologiyası haqqında məlumat verən N.Aşırov bildirib ki, çiyələk əkilən sahələrdə işlər ilboyu aparılır. Əvvəlcə torpaq əkinə hazırlanır, peyin verilir. Suvarma damcı üsulu ilə aparılır. Bu üsulla suya qənaət edilir, su bitkilər arasında bərabər paylanır, torpaq qaysaqlamır, yumşaq qalır, alaq otlarının azalmasına, məhsuldarlığın yüksəlməsinə nail olunur. Onun sözlərinə görə, zərərvericilərə və xəstəliklərə qarşı mübarizə tədbirləri də vaxtında aparılmalıdır.

(davamı növbəti sayımızda)

**Nardar BAYRAMLI**

# Kollec müəllimləri üçün UNEC-də təlimlər: “Sahibkarlığın əsasları”



Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən kolleclərin müəllimlərinə “Sahibkarlığın əsasları” mövzusunda təlimlər keçirilir.

UNEC-dən AZƏRTAC-a bildirilib ki, müəllimlərlə görüşən biznes və menecment fakültəsinin dekanı, dosent Mirağa Əhmədov universitetdə təlimlərin keçirilməsi üçün müvafiq şəraitin yaradıldığını diqqətə çatdırıb.

Qeyd olunub ki, beş gün davam edəcək təlimlərdə 37 kollecdən 50 müəllim iştirak edir. Onlara sahibkarlıq mühiti, kiçik və orta sahibkarlıq fəaliyyəti, innovasiya sahibkarlığı, sahibkarlıq fəaliyyətində risklər, vergiqoyma və bu istiqamətdə digər mövzular barədə məlumat verilir. Təlim iştirakçıları 4 saylı tədris binasında fəaliyyət göstərən kitabxana ilə yanaşı, 24/7 kitabxanasından da istifadə edə biləcək, eyni zamanda, zəruri materiallarla təmin olunacaqlar.

# Paytaxtda abadlaşdırılan növbəti həyət istifadəyə verilib









Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi uğurla davam edir.

AZƏRTAC xəbər verir ki, yanvarın 14-də “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Binəqədi rayonu, Fərman Məlikov küçəsi 1B, 1Q, 1A, 2A və 2B ünvanında 2400 nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

“Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan və 10 000 kvadratmetr sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə ərazidə uşaq oyun elementləri, müxtəlif idman qurğuları, mini futbol və şahmat meydançaları salınıb, uşaqlar üçün xüsusi örtüklü əyləncə mərkəzi quraşdırılıb, 8 ədəd söhbətgah və oturacaqlar qoyulub, binaların həyətində müasir işıqlandırma dirəkləri quraşdırılıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac və kol əkilib və 4 000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müşahidə kameraları quraşdırılıb.

Binəqədi rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan on dördüncü həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# “Nar”-ın korporativ müştərilərinin sayı artmaqdadır



Ölkənin ən gənc və innovativ mobil operatoru “Nar”-ın korporativ müştərilərinin sayı ildən-ilə artmaqdadır. Son 1 ildə mobil operatorun korporativ müştərilərinin sayı 30% yüksəlib.

Hər bir abunəçisinə xüsusi diqqət göstərən “Nar”, korporativ müştəriləri ilə mütəmadi görüşlər keçirir. Görüşün keçirilməsində əsas məqsəd korporativ müştərilərə mobil operatorun yeni imkanları barədə məlumatın verilməsi və əlaqələrin gücləndirilməsidir. Növbəti dəfə “Nar” 100-ə yaxın şirkətdən 250-yə qədər korporativ müştərisinin iştirakı ilə “Cinema Plus” kinoteatrının “Nar” zalında yeni filmə tamaşa ediblər. Filmdən sonra iştirakçılar arasında lotoreya keçirilib və qalib müştərilərə “Nar” tərəfindən xüsusi hədiyyələr verilib.

Qeyd edək ki, biznes tərəfdaşlarının sayını sürətlə artıran “Nar” daha sərfəli şərtlərlə əməkdaşlıq təklif edir. “Nar” korporativ müştərisi olmaqla, sahibkarlar öz biznes tələblərinə uyğun olan təkliflərdən yararlanmaqla yanaşı, keyfiyyətli rabitə və sərfəli qiymətlərdən faydalana bilərlər. Belə ki, korporativ tariflərdən birini seçməklə, müştərilər sərfəli qiymətə yeni model smartfon əldə edə bilərlər. Smartfonu əldə etmək üçün 1 “Nar” nömrəsinin korporativ tarifdə olması kifayətdir. Korporativ tarif planlarına şirkətdaxili limitsiz danışıq dəqiqələri əlavə edilir. Sözügedən tariflər aylıq 8 AZN-dən başlayan abunə haqqı ilə təklif olunur. İnternetdən daimi istifadə edən iş adamları isə “Nar”-ın pulsuz 4G data modem və data nömrələrini əldə edə və 1 il müddətində, xüsusi endirimlə, aylıq 20 GB mobil internetdən yararlana bilər.

Korporativ tərəfdaşlıq üçün 777 telefon nömrəsi və ya business-nar-@azerfon.az elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamaq olar. Təkliflərdən yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və ya fiziki şəxslər yararlana bilərlər.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU